Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

18 FEVRAL 2020-ci il

№ 29 (4160)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «MÜNHENDƏ BAŞ VERƏNLƏR BÜTÜN ÜMİDLƏRİ SARSITDI» - ERMƏNİSTANDA İCTİMAİ RƏY...

səh. 9

Əliyevin debatda Paşinyanı üstələməsi Ermənistana bir zərbə, bunu Münhen kimi platformada etməsi ikinci zərbə...

səh. 3

Paşinyan Mütəllibova böhtanın tələsində - Baş nazir Sarkisyanı təkzib etdi, Əliyev ikisini də ifşa etdi...

səh. 5

Qondarma "Artsaxın öz ordusu", Paşinyanın oğlunun əsgərliyi və İlham Əliyevin tutarlı "80 min ordu" arqumenti...

səh. 6

Prezident Əliyev Avropaya 2050-ci ilə qədərki dövr üçün mühüm təhlükəsizlik təminatı göstərdi

səh. 4

Erməni mediası Paşinyanı göyərçinə, İlham Əliyevi şahinə bənzətdi...

səh. 7

Münhen debatında Minsk Qrupu həmsədrlərinə və dünya birliyinə müraciətin əsas acısını Paşinyan sonra dadacaq...

səh. 8

Çinə 150 milyard dollar ziyan vuran koronavirus təhdidi Azərbaycan iqtisadiyyatından yan keçir...

səh. 15



səh. 10

## Mifik Böyük Tiqrandan sonra Qafqazda cəmi «iki millət» tezisi də Paşinyanı gülünc vəziyyətdə qoydu



Paşinyan Münhen debatında ha özünün mikroinqilabını gözə soxmağa çalışdı, alınmadı ki, alınmadı...

səh. 5

Erməni ziyalıları və mediasının Paşinyanın üstünə «post-Münhen» yürüşünün səbəbləri...

səh. 11



Azərbaycanda dollara tələbat bir ayda düz üç dəfə azaldı - valyuta bazarında yeni şok...

səh. 14

səh. 2

Paşinyan Münhen debatında bütün istiqamətlər üzrə uduzdu



səh. 6

İlham Əliyev və Paşinyan ingilis dilinə hansı səviyyədə sahibdir - dilçilərin rəyi...



səh. 11

Erməni liderlər danışıqların bütün əvvəlki mərhələlərində prosesdən hansı bəhanələrlə yayınıblar...



səh. 13

Paşinyanın Berlində Rəsulzadəni faşist Njde ilə müqayisə etməsi, əslində, Merkelin özünə təhqirdir



səh. 13

Radikalların seçkisonrası mitinqinin iki uğursuz təzahürü - icazə verilmiş Lökbatandan imtina və qanuni araşdırmalara təzyiq göstərmək cəhdi...





## AHİK-də Beynəlxalq Təhsil Birliyinin Avropa regionu üzrə direktoru ilə görüş keçirildi

**Fevralın 17-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Beynəlxalq Təhsil Birliyinin Avropa regionu üzrə direktoru Syuzan Floken, Beynəlxalq Avrasiya Təhsil İşçiləri Həmkarlar İttifaqı Birliyinin və Türk "Egitim-Şen" Həmkarlar İttifaqı Komitəsinin sədri Talip Geylanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

AHİK sədri, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti Səttar Möhbalıyev görüşdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (ATİAHİ) beynəlxalq əlaqələrin genişləndirilməsi ilə bağlı əldə etdiyi uğurlardan danışıb. Sədr bildirib ki, AHİK dünyanın 50-dən artıq ölkəsinin həmkarlar ittifaqları ilə sıx əlaqə saxlayır. O, bu əlaqələrin qurulmasında, həmin ittifaqlarla əməkdaşlığın genişləndirilməsində Syuzan Flokenin əməyini yüksək qiymətləndirib. Belə qarşılıqlı görüşlərin, seminarların daha sıx şəkildə keçirilməsinin vacibliyini vurğulayan S.Möhbalıyev ATİAHİ Respublika Komitəsinin Beynəlxalq Təhsil Birliyi və Beynəlxalq Avrasiya Təhsil İşçiləri Həmkarlar İttifaqı Birliyi ilə həyata keçirdiyi birgə layihələrdən də danışıb.

Sədr Azərbaycan Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Türk "Egitim-Şen", "Egitim Birsen" Həmkarlar İttifaqlarının Beynəlxalq Təhsil Birliyinə üzv qəbul edilməsi ilə bağlı məsələdə vasitəçi kimi iştirak etdiyindən məmnunluğunu ifadə edib.

Beynəlxalq Təhsil Birliyinin Avropa regionu üzrə direktoru Syuzan Floken qonaqpərvərliyə və əməkdaşlığa görə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədrinə təşəkkür edib. Avropalı qonaq Azərbaycanla əlaqələrin və ikitərəfli münasibətlərin genişləndirilməsinə böyük əhəmiyyət verildiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan regionda öz nüfuzu ilə seçilir və imkanları genişdir. Beynəlxalq Təhsil Birliyinin nümayəndəsi quruma üzv ölkələrin sayının çoxalmasının vacibliyini vurğulayıb. O, gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndiriləcəyindən əminliyini ifadə edib.

Görüş müzakirələrlə davam edib.

Qeyd edək ki, ATİAHİ Respublika Komitəsi 2000-ci ildən Beynəlxalq Təhsil Birliyinin, 2006-cı ildən isə Beynəlxalq Avrasiya Həmkarlar İttifaqı Birliyinin üzvüdür.

## Bakı polisi atılmış və tapılmış 7 azyaşlını uşaq evinə təhvil verdi

**Məktəbli azyaşlı və yeniyetmələrin profilaktikası istiqamətində keçirilən tədbirlər kampaniya xarakteri daşımır. Hər bir Azərbaycan vətəndaşının təhlükəsizliyini qorumaq, hüquqlarını bərpa etmək bizim üçün müqəddəs vəzifədir. Bu məsələ müzakirə olunmur, dərhal icra edilir.**

Bu barədə "Trend"in sorğusuna cavab olaraq, Bakı şəhər BPİ Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, uşaq hüquqları üzrə üzərlərinə düşən vəzifələrin icrası istiqamətində daxil olan bütün müraciətlərə diqqətlə yanaşılır: "Təkcə rəsmi müraciətlər yox, eyni zamanda sosial şəbəklərdə, mətbuatda uşaq hüquqlarının pozulması ilə bağlı yayılan məlumatlar da nəzərətə götürülür, yoxlanılır, araşdırılır, müvafiq tədbirlər həyata keçirilir. Hər bir Azərbaycan vətəndaşının təhlükəsizliyini qorumaq, hüquqlarını bərpa etmək bizim üçün müqəddəs vəzifədir. Bu məsələ, müzakirə olunmur, dərhal icra edilir. Uşaq hüquqlarının qorunmasında risq qrupuna daxil olan, yaxud münaqişəli ailələrdə olan azyaşlıların mühafizəsinə həssas yanaşırıq. Uşaq hüquqlarının pozulmasının qarşısının alınması ilə yanaşı, onların təhsilə cəlb edilməsi, ailələrlə profilaktiki söhbətlərin aparılması işi fəaliyyətimizin tərkib hissəsidir.

Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsi və ərazi polis orqanları tərəfindən orta ümumtəhsil ocaqlarında və ona bərabər yerlərdə ötən il azyaşlıların profilakatikası, maarifləndirilməsinə dair 468 müxtəlif məzmunlu görüşlər keçirilib".

E.Hacıyev küçə uşaqları ilə bağlı vəziyyət haqqında isə əlavə edib ki, bu da diqqətdə olan məsələlər sırasındadır: "Tərəfimizdən aşkarlandıqda dərhal araşdırma başlanılaraq, onun mənsub olduğu ailə öyrənilir, olmadıqda isə profilaktiki qeydiyyata alınaraq müvafiq sığınacaqlara yerləşdirilir. Bu məqsədlə ötən il Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsi və ərazi polis orqanları tərəfindən 573 reyd təşkil olunub. Aşkarlanan 46 uşaq sosial sığınacaqlara yerləşdirilib, eləcə də 7 atılmış körpə tərəfimizdən tapılaraq, uşaq evlərinə təhvil verilib".

# MSK Mixail Zabelinin dairəsində 7 məntəqənin səsvermə nəticələrini ləğv etdi

**Mərkəzi Seçki Komissiyasının (MSK) parlament seçkiləri ilə bağlı iclası başlayıb. "Trend"in məlumatına görə, iclasda 42 saylı Sumqayıt İkinci Seçki Dairəsi üzrə müraciətin baxılması üçün dairə seçki komissiyasına göndərilməsi barədə qərar qəbul edilib.**



51 saylı Qusar, 68 saylı Cəlilabad kənd, 98 saylı Şəmkir şəhər, 108 saylı Ağstafa, 24 saylı Nizami Birinci və digər bir neçə seçki dairəsi üzrə müraciətlər qanunvericilikdə nəzərdə tutulan müddət ötürülməklə göndərildiyi üçün baxılmamış saxlanıb. 12 saylı Qaradağ-Binəqədi-Yasamal Seçki Dairəsi üzrə müraciət də aidiyyəti üzrə baxılması üçün dairə seçki komissiyasına göndərilib. 34 saylı Xətai üçüncü seçki dairəsi üzrə müraciətə də baxılıb. Müraciətdə seçkilər zamanı pozuntulara yol verildiyi bildirilib. Qeyd olunub ki, aparılan araşdırmalar zamanı şikayət qismən təsdiqini tapıb. MSK üzvü İlkin Şahbazov həmin dairə üzrə 1, 2, 3, 4, 18, 30, 35 saylı seçki məntəqələrində səsvermnin nəticəsinin etibarsız sayılmasını təklif edib. Təklif səsə qoyularaq qəbul edilib. Qeyd edək ki, həmin dairə üzrə lider namizəd Mixail Zabelindir.

**Münxen Təhlükəsizlik Konfransının 2020-ci il mərhələsi beynəlxalq münasibətlər tarixində Azərbaycan həqiqətlərinin parlaq nümayiş və tanınma səhnəsi kimi qalacaq.**

dünya ictimaiyyətinin nəzərində növbəti dəfə yalan danışdı. Azərbaycan Prezi-

landlrdı.

Ən maraqlı məqamlardan biri o oldu ku, Pa-

# Paşinyan Münhen debatında bütün istiqamətlər üzrə uduzdu

### *Aydın Quliyev: "Dövlət başçısı Paşinyanı Minsk Qrupu həmsədrləri və dünya gücləri qarşısında çıxılmaz duruma saldı"*

Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, Dağlıq Qarabağa dair Prezident İlham Əliyevlə Paşinyanın iştirak etdiyi panel müzakirədə Azərbaycan liderinin mövqeyinin üstünlüyü bütün parametrlər üzrə özünü göstərdi:

"Dağlıq Qarabağ probleminin tarixi, hazırkı mahiyyəti və ən optimal həlli yollarını əhatə edən arqumentlərdə Azərbaycan lideri Ermənistanın baş nazirini sözün həqiqi mənasında dalana tulladı. Paneldə iştirakçıların diqqətini cəlb etmək nöqteyi-nəzərindən də Azərbaycan prezidentinin mövqeyi və məntiqi bənzərsiz oldu. Prezident İlham Əliyevdən fərqli olaraq Nikol Paşinyanın publika qarşısında büruzə verdiyi narahatlıq probleminin mahiyyəti barədə onun yarımçıq biliklərə malik olduğunu və Ermənistanın təcavüzkar tərəf olduğunu gizlədə bilməməsini göstərdi. Paşinyanın mülahizələrinin həminin bildiyi təcavüzə uğursuz haqq qazandırmaq cəhdlərindən başqa bir şey olmadığını hər kəs gördü. Münxen paneli Dağlıq Qarabağ münaqişəsi başlayandan indiyə-




dək Ermənistanın diplomatik və hüquqi müstəvidə ən maraqlı aşkar iflas səhnələrindən biri oldu. Prezident İlham Əliyev Dağlıq Qarabağın hüquqi cəhətdən Azərbaycana məxsus olmasını bütün dünyaya bir daha nümayiş etdirdi".

A. Quliyev bildirib ki, Paşinyan debatda sülh prosesinə hər hansı töhfəni vermək yox, erməni cəmiyyətinin millətçi və təcavüzkar kəsiminin hisslərinə uyğun davranışını gizlədə bilmədi: "Paşinyan

denti debatda Paşinyanın bir yalanını da cavabsız buraxmadı. Üstəlik dövlət başçısı Paşinyanın həm özünün, həm də sələflərinin Dağlıq Qarabağ problemi barədə yalanlarını və pozucu-təxribat səylərini ifşa etdi. Həmçinin Ayaz Mütəllibovun dilindən uydurulmuş yalanı ifşa etdi və Xocalı faciəsinin azərbaycanlıların özləri tərəfindən törədildiyi barədə Paşinyanın yalanını onun üzünə "riyakarlıq"ad-

şinyan ancaq məlum yalanları və əsassız iddialarını sadəcə təkrarladığı halda Azərbaycan lideri dünyaya, öz xalqına və erməni xalqına real ismarışlar verdi. Prezident İlham Əliyevin "Ermənistan əsgərləri torpaqlarımızda həmişəlik qala bilməyəcəklər" bəyanatı Azərbaycan xalqını qələbəyə toparlayan təsir gücünə malikdir. Prezident İlham Əliyevin "erməni xalqı Azərbaycanla həmişə düşmən münasibətdə yaşaya bilməz" fikri Paşinyanın öz daxili auditoriyasına hesabladığı söz oyunlarını tam zərərsizləşdirdi".

Ekspert bildirib ki, debatın maraqlı tərəflərindən biri də dövlət başçısının Paşinyanı Minsk Qrupu həmsədrləri və dünya gücləri qarşısında çıxılmaz duruma salması oldu:

"Prezident İlham Əliyev dünya ictimaiyyətini Ermənistanı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına məcbur etməyə çağırdı. Dövlət başçısı Paşinyanla debatda aşkar nümayiş etdirdiyi hərtərəfli üstünlüklərlə əslində sülh prosesinin yeni mərhələsinin əsasını qoydu".

# Əliyevin debatda Paşinyanı üstələməsi Ermənistana bir zərbə, bunu Münhen kimi platformada etməsi ikinci zərbə...

## *Yeganə Hacıyeva: "Bu, təkcə Ermənistan Baş nazirinin deyil, Ermənistan xarici siyasətinin ifşası idi"*

**Münhendə keçirilən Təhlükəsizlik Konfransı çərçivəsində münaqişədə olan iki ölkənin başçısının panel görüşməsi dünya tərəfindən maraqla izlənildi. Yalnız Azərbaycanda olan təhlilçilər deyil, başqa ölkələrdən verilən reaksiyalarda da birmənalı şəkildə debatın İlham Əliyevin aşkar üstünlüyü ilə keçdiyi qeyd edilir.**

Paşinyanın hansı mövzularda tam özünü ifşa etməsilə bağlı çox yazılıb. Maraqlıdır, İlham Əliyevin Paşinyan üzərində özü də Münhen kimi platformada əldə etdiyi aşkar üstünlüyün Azərbaycan üçün nə kimi əhəmiyyəti var?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyevanın sözlərinə görə, suala cavab verməzdən öncə Münhen Təhlükəsizlik Konfransının necə bir platforma olması haqqında danışmaq lazımdır: "Münhen Təhlükəsizlik Konfransı 1962-ci ildən bəri Münhendə keçirilən illik konfransdır. 1992-ci ilə qədər bu platforma Ümumdünya Hərbi İşlər Konfransı adlanırdı.

1993-cü ildən konfrans "Təhlükəsizlik Siyasəti Məsələləri" adlandırıldı. 1998-ci ildən Almaniya dövlətinin patronajlığı ilə "Dialoq yolu ilə barışıq" devizi altında keçirilən konfrans məhz 2008-ci ildən Münhen Təhlükəsizlik Konfransı kimi adlandırıldı.

İlk 30 ildə konfrans iştirakçıları NATO dövlətlərinin hərbi və siyasi rəhbərləri, politoloqlar və media nümayəndələri idi. 1990-cı illərdən sonra Rusiya, 1995-ci ildən sonra isə Şərqi Avropanın digər ölkələri, Çin, Hindistan və Yaponiyanın nümayəndələrinin iştiraki ilə keçirilən bir qlobal təhlükəsizlik platformasıdır. Platformanin məqsədi dünyada sülhün təmin edilməsində beynəlxalq əməkdaşlığın inkişafı, münaqişələrin qeyri-hərbi həlli yollarının axtarılması və saire idir.

56-cı Münhen Təhlükəsizlik Konfransı 35 dövlət və hökumət başçısı, 80 xarici işlər və müdafiə naziri olmaqla 500 yaxın siyasətçi, təhlükəsizlik və media ekspertlərinin iştirakı ilə başladı.

56-cı Münhen Təhlükəsizlik Konfransı çərçivəsində fevralın 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ konflikti ilə bağlı panel müzakirələr keçirildi.

İlk dəqiqələrdən beynəlxalq hüquq və tarixi faktlara əsaslanan Azərbaycan Prezidentinin mövqeyi qarşısında Ermənistan tərəfi Dağlıq Qarabağ konflikti ilə bağlı beynəlxalq hüquqdan kənar mövqeyini daha çox yalanlar və uydurma tarixi faktlarla ifadə etməyə çalışdı.




56-cı Münhen Təhlükəsizlik Konfransında ölkə rəhbərləri səviyyəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ konfliktinin müzakirəsi konfransın iştirakçıları - 35 dövlət və hökumət başçısı, 80 xarici işlər və müdafiə naziri olmaqla, 500-ə yaxın siyasətçi, təhlükəsizlik və media ekspertlərinin digər iştirakçılara Azərbaycan cəmiyyətinin bildiyi və illərdir haqlı iddia etdiyi bir neçə mühüm məqamı sübüt etdi.

Konfliktin həlli istiqamətində daim arqumentlərini hüquq və ya siyasi hadisələrə bağlı məqamlara deyil, özlərinin uydurduqları sərsəmləmələr əsasında formalaşdıran səriştəsiz Ermənistan rəhbərliyi təkcə region ölkələrinin deyil, regionda iqtisadi, siyasi və təhlükəsizlik çıxarları olan kənar güclərin maraqlarına da təhlükədir.

Beynəlxalq hüquq və tarixdən məlumatlı Azərbaycan Prezidentinin Ermənistan Baş nazirinin öz mövqeyini yalan tarixi məlumatlar üzərində qurulmuş arqumentlərlə möhkəmləndirməsi cəhdini ifşa etməsi təkcə Ermənistan Baş nazirinin deyil, Ermənistan xarici siyasətinin ifşası idi. Bunu həm də Nikol Paşinyanın siyasətçi kimi, onun idarəçiliyində Ermənistan dövlətinin xarici siyasətinin iflası da adlandıra bilərik.

Uzun illər dünya birliyi qlobal anlamda sülhün əldə olunmasını liberal demokratiyanın, insan haqlarının, bazar iqtisadiyyatı, beynəlxalq əməkdaşlığı və s. kimi məqamların inkşafının nəticəsi kimi görürdü. Ancaq son illər dünyanın dəyişən siyasi reallığında belə dəyərlərin əhəmiyyəti qəbul olunsa da, "soyuq müharibə" bitdikikdən sonra dünya bəlkə ilk dəfədir sülhün və inkişafın əldə olunması üçün daha çox "güc və nüfuz faktorunun tətbiqi" doğruluğu və reallığı ilə üz-üzədir.

56-cı Münhen Təhlükəsizlik Konfrasında Azərbaycan Prezidenti İlham Əliyevin Dağlıq Qarabağ konfliktinin həlli istiqamətində beynəlxalq nizamlayıcı səylərin nəticəsiz qaldığı halda öz dövlətinin beynəlxalq hüquqla tanınmış ərazi bütövlüyünün bərpasının hərbi yoldan başqa çıxışın olmaması zərurəti haqqında fikri də məhz bu reallığa söykənir.

**56-cı Münhen Təhlükəsizlik Konfrasında rəqəmsal təhlükəsizlik panellərində müzakirələrdən meydana çıxan daha bir nəticəni bölüşmək istəyirəm. Son illər sosial media və internet resursların tətbiqi, təbliği ilə siyasi lider mifi bürünən, yetişdirilən simaların uzunmüddətli hesabda təkcə lokal dövlətlərin deyil, regional və qlobal güclərin də maraqlarına hədə olması reallığı mövcuddur. Sosial media üzərindən öz ölkəsində inqilabların simasi olmuş və siyasi lideri səviyyəsinə qalxmış Nikol Paşınyan özü buna bir nümunədir".**

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident Əliyev Münhendə dünyanın gözü qarşısında Paşinyanı tarixi fakt və arqumentlərlə çıxılmaz vəziyyətə saldı

**Fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib.**

Debat Azərbaycan Prezidenti İ.Əliyevin Ermənistan baş naziri N.Paşinyan üzərində arqument üstünlüyü ilə keçdi. Çünki bu söhbət Qarabağ münaqişəsindən gedirdi və burada da bütün haqq-ədalət, bütün məntiq Azərbaycanın tərəfindədir. Erməni rəhbər debata artıq uduzmuş girmişdi. Məhz bunun nəticəsi idi ki, müzakirə Prezident İlham Əliyevin Ermənistanın hökumət başçısına tarixi həqiqətlər və beynəlxalq hüquqla bağlı verdiyi dərs kimi xarakterizə olundu. Görün Paşinyan nə qədər arqumentə və məntiqə möhtac həddinə gəlib ki, dünyanın bildiyi, canlı fakt və sübutlarla təsdiqini tapmış, 650 nəfərdən çox qətli, yüzlərlə yaralı, yüzlərlə əsiri olan, hələ də şahidləri sağ olan və yaraları qurumamış tarixin Xocalı faciəsini inkar etməyə çalışdı. İstinadı isə hansısa qəzetə verilib-verilməməsi şübhə doğuran bir müsahibə idi. Debat zamanı N.Paşinyanın daha çox heç bir əsası olmayan, real faktlara söykənməyən arqumentlər gətirmək cəhdi isə gülüş doğurub. Məhz bunun nəticəsidir ki, erməni jurnalistlər debatda onları biabır etdiklərinə görə Paşinyanın ünvanına ciddi ittihamlar səsləndiriblər. Ermənistan-Azərbaycan münaqişəsinə dair panel-diskussiyada Prezident İlham Əliyevin qarşısında gülünc vəziyyətə düşməsini heç cür həzm edə bilməyən erməni yazıçısı bunu Paşinyanın kütlüyü ilə izah edib. Erməni yazıçısı vurğulayıb ki, məhz N.Paşinyanın tarixdən xəbərsiz olması, siyasi diskussiyaya lazımınca hazırlaşa bilməməsi onu, onun timsalında isə bütün Ermənistanı gülünc vəziyyətdə qoyub.

Paşinyanın Azərbaycan Prezidentinə bütün parametrlərdə uduzduğunu bildirən A.Turcotte Ermənistan baş naziri haqqında "ayıb olsun" ifadəsini işlədib. Doğrudan da Paşinyana ayıb olsun ki, çıxılmaz vəziyyətdə qaldığı üçün ağ yalanlar danışmağa məcbur qaldı. Ermənistanın baş naziri Şaumyan rayonunun Dağlıq Qarabağa aid olduğunu bildirdi. Onun düşdüyü acınacaqlı durumdan və üzr istəməsindən istifadə edən Prezidentimiz bolşevik Stepan Şaumyanın adının tarixi Azərbaycan şəhəri olan Xankəndiyə verildiyini, müstəqil bir dövlətə rəhbərlik edən Xanın kəndinin bolşevik Stepanın şəhərinə çevrildiyini vurğuladı.

Bu debatda, sadəcə Ermənistanın baş naziri deyil, bütövlükdə erməni təbliğat maşını dünyanın gözü qarşısında Azərbaycan Prezidentinə məğlub olduğunu göstərdi. Ermənistan baş naziri həm də debatın aparıldığı dilin mənimsənilməsi və fikirlərin sərbəst ifadə olunmasında İlham Əliyevə uduzdu.

Məhz bunun nəticəsi idi ki, Azərbaycan Prezidenti İlham Əliyev Münhendə Ermənistanın baş naziri Nikol Paşinyanı növbəti dəfə susdurdu, işğalçı ölkə rəhbərini geniş auditoriya qarşısında çıxılmaz vəziyyətə saldı. Debat və ondan sonra çəkilən fotolardan da görünür ki, Paşinyan düşdüyü vəziyyətdən çıxış yolunu başını aşağı salıb, utancaq görkəm almaqda görüb. Eşq olsun cənab Prezidentə!

*Məhəmmədəli QƏRİBLİ*

# Prezident Əliyev Avropaya 2050-ci ilə qədərki dövr üçün mühüm təhlükəsizlik təminatı göstərdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda keçirilən dəyirmi masada çıxışı zamanı bildirib ki, Azərbaycan çox sabit neft təchizatçısı olaraq qalır:**

"2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəmərinin açılışından bəri heç bir fasilə, fors-major və ya problem baş verməyib. Geosiyasi və texniki nöqteyi-nəzərdən onu da həyata keçirmək çox çətin idi, çünki ilk dəfə olaraq o, Xəzər və Aralıq dənizlərini birləşdirirdi. Bəzi ölkələr üçün, o cümlədən Avropa ölkələri üçün Azərbaycan qazı onların istehlakının təxminən 40 faizini təşkil edir. Ona görə də biz neft təchizatçısı kimi etibarlı tərəfdaş olmağa davam edəcəyik. Bu yaxınlarda biz BP şirkəti ilə müqaviləni uzatmışıq. 2050-ci ilədək bizim nisbətən sabit istehsal profilimiz olacaq. Ona görə də yeni layihələrin kəşfiyyat işləri aparılır. Hazırda biz, belə demək mümkündürsə, neft bumunun ikinci fazasını yaşayırıq, bir çox şirkətlər, böyük şirkətlər geri qayıdaraq yeni layihələrə cəlb olunur və bu da bizə istehsal profilini saxlamaqla yanaşı, həm də onu artırmaq imkanını verəcək".

Göründüyü kimi ölkə başçısı Avropaya 2050-ci ilə qədər enerji təminatı sahəsində təhlükəsizliklə bağlı mühüm açıqlama verib. Azərbaycanın bu rolunu necə dəyərləndirmək olar?

İqtisadçı Elşən Əliyevin sözlərinə görə, neftqaz ehtiyatları ilə zəngin Xəzər dənizində böyük həcmdə karbohidrogen hasilatı həyata keçirilir: "Bu mənada Azərbaycan Avropanın enerji ehtiyatlarına olan tələbatını ödəmək, vəziyyəti mümkün qədər yaxşılaşdırmaq üçün yeni layihələrin işlənilməsinə əlverişli imkanlar yaradır. Azərbaycanın regional və qlobal enerji bazarlarında artan rolu onun Aİ, xüsusən Balkan ölkələrinin enerji təhlükəsizliyində mühüm rol oynaması üçün fürsəti idi. Azərbaycan bunu lazımi anda dəyərləndirdi. Hazırda Aİ üçün ən yaxşı variantlardan biri təbii qazın məhz Azərbaycandan alınmasıdır. Doğrudur, indi ABŞ da Aİ-yə mayeləşdirilmiş təbii qaz satışını artırmağa çalışır. Lakin bu, Avropa üçün daha baha başa gəlir.

Bu arada, TAP Yunanıstanın Azərbaycandan qaz idxal etməklə yanaşı, həm də bu layihədən tranzit gəlirləri götürməsinə imkan verəcək. Başqa sözlə, o, Aİ-nin enerji təhlükəsizliyinin təminində vacib tranzit rolu oynamaqla, bundan divident qazanacaq.

Bu layihə Türkiyəyə də tranzit körpüsünə çevrilmək imkanı verir. Lakin Ankaranın məqsədi yalnız bu deyil. O, bölgə ölkələri ilə güclü tarixi, iqtisadi və siyasi əlaqələrə malikdir. Türkiyə zəruri infrastrukturu yarada, Azərbaycanın karbohid-




rogen ehtiyatlarını nəql edəcək boru kəmərləri hesabına enerji bazarının liberallaşdırılmasına daha çox xarici sərmayə cəlb edə bilərsə, uzunmüddətli perspektivdə beynəlxalq enerji nəqli sahəsində əsas oyunçuya çevriləcək. Azərbaycan bütün bu layihələrdə yaxından iştirak edib və təşəbbüskar olub. İlham Əliyevin Münhendə səsləndirdiyi fikirlər isə bir daha Azərbaycanın etibarlı partnyor olduğunu sübut edir. Azərbaycan kiçik ölkə olsa da, bu sahədə oynadığı mühüm rola görə, dünya ölkələri arasında vacib aktor kimi dəyərləndirilir".

Ekspertin sözlərinə görə, bu gün Azərbaycan Respublikası özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan birinə çevrilib: "Ölkəmiz milli maraqlara müvafiq olaraq həyata keçirilən praqmatik siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu kimi çıxış edir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilmir.

Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması regional miqyasda hazırkı əməkdaşlığın səmərəli nəticələridir.

Şübhəsiz ki, regionda bu günə qədər həyata keçirilən və əməkdaşlığa təkan verən layihələrdə Azərbaycanın siyasi iradəsi və qətiyyəti öz sözünü deyib. Digər tərəfdən, Azərbaycan enerji ehtiyatlarının ixracında çoxvariantlı nəqletmə sisteminə - diversifikasiya edilmiş təchizata üstünlük verir və dünyanın aparıcı dövlətləri tərəfindən etibarlı strateji tərəfdaş kimi qiymətləndirilir. Müstəqil enerji siyasəti ölkəmizin beynəlxalq arenadakı mövqeyini, həmçinin regionun və regionətrafı coğrafiyanın geostrateji təhlükəsizliyini daha da gücləndirir. Eyni zamanda, Azərbaycanın səmərəli enerji siyasəti yeni əməkdaşlıq platformaları müəyyənləşdirməklə yanaşı, Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə strateji töhfələr verir".

*Məhəmmədəli QƏRİBLİ*

**Fevralın 15-də Münhen Təhlükəsizlik Konfransında Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında baş tutan panel müzakirələrində diqqətçəkən ən mühüm məqamlardan biri də Xocalı soyqırımı ilə bağlı erməni tərəfinin səsləndirdiyi fikirlər oldu.**



*"Yaxşı olardı ki, Paşinyan Mütəllibovun adından yalan danışmaqdansa, Serj Sarkisyanın etiraflarından danışsın"*

# Paşinyan Mütəllibova böhtanın tələsində - Baş nazir Sarkisyanı təkzib etdi, Əliyev ikisini də ifşa etdi...

***Ramil Hüseynov:** "Ermənilərin nəzarətində olan ərazidə Azərbaycan tərəfi necə soyqırım törədə bilərdi?*

Nikol Paşinyan bu soyqırımda "azərbaycanlıların əlinin olması" barədə Ayaz Mütəllibovun vaxtilə dediklərinə istinad etməyə uğursuz bir cəhd etdi. Lakin Prezident Əliyev tərəfindən tutarlı cavab aldı. Ölkə başçısı faktlarla həm Paşinyanı, həm də əvvəlki Ermənistan hakimiyyətini ifşa etdi.

Bəs Paşinyan 1992-ci ildə Xocalı soyqırımının törədilməsində birbaşa iştirak edən Serj Sarkisyanın etiraflarını niyə görməzdən gəlir? Hansı ki, 2000-ci ildə onun müsahibəsi nə siyasi ittiham idi, nə də kiməsə cavab: bu, Xocalı ilə bağlı erməni düşüncəsinin ifadəsi idi. Sözügedən müsahibəni Sarkisyan məşhur ingilis jurnalisti, Karnegi Fondunun proqram direktoru Tomas de Vaala verib. Müsahibəni verəndə Serj Sərkisyan Ermənistanın müdafiə naziri idi. Xocalı soyqırımı ilə bağlı Tomas de Vaalаın sualını Sarkisyan belə cavablandırıb: "Bilirsiniz, belə şeylər haqqında açıq danışmırlar. Nə demək mümkündürsə, onu deyirlər. Mən də belə edəcəyəm. Birincisi, Azərbaycanın keçmiş rəhbəri deyirdi ki, bu, ermənilər deyil, azərbaycanlılar özləri idi. Amma deyim ki, həqiqət başqa ola bilər. Xocalı bir vaxtlar bütün Qarabağı çox bezdirirdi, çünki orada aeroport var idi, Ermənistanla yeganə əlaqəmiz hava nəqliyyatı ilə idi, çünki orada OMON var idi, orada nə isə araşdırırdılar, insanları həbs edirdilər. Bundan başqa, demək olar ki, Stepanakertin (Xankəndi nəzərdə tutulur) tam yaxınlığında yerləşən Xocalı sakinləri oranı atəşə tutdular. Amma, zənnimcə, əsas məsələ başqa şeydədir. Xocalıya qədər azərbaycanlılar bizimlə sadəcə zarafat etdiklərini düşünürdülər. Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Bütün bu düşüncələri dəyişmək lazım idi. Belə də oldu".

Yeri gəlmişkən onu da qeyd edək ki, həmin müsahibədən sonra Sarkisyan iddia etdi ki, guya onun açıqlamaları təhrif olunub. Ancaq buna cavab olaraq Tomas de Vaal Sarkisyanla müsahibənin orijinalını və səs yazısını yaydı. Bir daha təsdiq olundu ki, Sarkisyanın fikirləri təhrif olunmayıb.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən siyasi ekspert Ramil Hüseynovun fikrincə, məlum tədbirdə Paşinyan bir daha fakt qarşısında qoyuldu: "Əvvəla sözügedən dialoqda Prezident İlham Əliyev çox tutarlı arqumentlərlə Paşinyanı və Ermənistanın işğalçılıq siyasətini ifşa etdi. Bunu danmaq qeyri-mümkündür. Hətta Ermənistanın özündə bir sıra siyasi dairələr Paşinyanın dialoqda uduzduğunu etiraf edirlər. Paşinyanın guya Xocalı soyqırımını azərbaycanlıların törətdiyi barədə səsləndirdiyi fikirlərin, ümumiyyətlə, heç bir əsası yoxdur. Ən azından ona görə ki, Xocalı şəhəri tamamilə erməni yaşayış məntəqələrinin əhatəsində idi. Xocalı ilə Ağdam arasında birbaşa quru əlaqəsi yox idi. Xocalıya getmək üçün Əsgəran qəsəbəsindən keçmək lazım idi. Həmin qəsəbə də ermənilərin əlində idi. Həmçinin, ətrafda erməni kəndləri var idi. Bir sözlə, ərazi ermənilərin nəzarətində olub. Belə olan halda, Azərbaycan tərəfi necə soyqırım törədə bilərdi? Əhali şəhəri tərk edəndə ermənilərin nəzarətində olan Naxçıvanik kəndi yaxınlığında pusquya salınaraq kütləvi şəkildə qətlə yetirilib. Daha sonra cəsədlərin dərisi qoparılıb.

Bununla bağlı videogörüntülər də var. Başqa bir tərəfdən, Ermənistanın sabiq prezidenti Serj Sarkisyan vaxtilə verdiyi müsahibədə dinc insanların öldürülməsini açıq etiraf edib. Bununla bağlı digər faktlar da var. O baxımdan yaxşı olardı ki, Paşinyan Mütəllibovun adından yalan danışmaqdansa, Serj Sarkisyanın etiraflarından danışsın. Nəzərə almaq lazımdır ki, bütün bunlar yaxın tarixdə baş verib".

***Vidadi ORDAHALLI***

**Münhendə keçirilən debatda Paşinyan həm də yersiz olaraq özünü inqilab lideri kimi təqdim etməklə uğursuzluğa imza atdı. Maraqlıdır ki, panelin mövzusuna aid olmayan bu məsələni gündəmə gətirməklə yanaşı, həm də müzakirənin bu məcrada aparılmasına nail olmaq istədi.**



# Paşinyan Münhen debatında ha özünün mikroinqilabını gözə soxmağa çalışdı, alınmadı ki, alınmadı...

Sitat: "...təəssüf ki, son 25, hətta 30 il ərzində biz hər dəfə eyni şeyləri təkrar edirik. Qorxuram ki, beynəlxalq ictimaiyyət müəyyən məqamda eyni şeyləri eşitməkdən artıq yorula. Düşünürəm ki, biz yeni ideyalar gətirməliyik. Demək istəyirəm ki, mən qeyri-zorakı "məxməri xalq inqilabı" vasitəsilə Ermənistanın Baş naziri olanda anladım ki, 30 ildir davam edən münaqişəni bir və ya iki addımla həll etmək mümkün deyil. Mən düşündüm ki, bu problemin həlli üçün bizim inqilablara ehtiyacımız var. Mən mikroinqilab proseslərinə başladım və növbəti çıxışım zamanı siz mənə söz verdikdə mən sizə mənim təşəbbüskarı olduğum Dağlıq Qarabağ danışıqları prosesində mikroinqilabların rolu barədə danışacağam".

Sonrakı müzakirədə Paşinyan guya verdiyi bəyanatları danışıqlar prosesində bir inqilab adlandırır. Onun inqilab sözü ilə manipulyasiya etməsi nəyin əlaməti sayıla bilər?

Əslində, müzakirə edilən mövzuda inqilab termininin işlədilməsinə ehtiyac olmayıb. Bu sözü Paşinyan məqsədli şəkildə hallandırır. Onun zənnincə, inqilab deyəndə beyinlərdə Paşinyan assosiasiya olunur. Çünki o, təsadüf nəticəsində məhz küçədəki inqilabla hakimiyyətə gəlib. Elə zənn edir ki, həmin prosesi danışıqlara da tətbiq etmək mümkündür. Hətta misal da çəkir ki, guya o, işlətdiyi ifadələrə görə yeganə erməni lideridir. Əsas gətirdiyi ifadə nədir? Deyib ki, münaqişənin həlli Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ xalqının mənafeyinə uyğun olmalıdır. Bəllidir ki, Paşinyan xalq deyəndə orada yaşayan erməniləri nəzərdə tutur və bunu problemin həllində kiçik inqilab kimi sırımağa çalışır. Əksinə, onun bu avantürist fikri problemin həllini ləngidir. Çünki Dağlıq Qarabağ ərazisindəki xalq yalnız ermənilərdən ibarət deyil ki, onlar gəlib danışıqlarda tərəf olsunlar. Orada iki icma var: azərbaycanlı və erməni. Biz danışıqlar prosesində rəy öyrənmək istəyiriksə, onda hər iki icmanı bərabərhüquqlu tərəf kimi dinləməliyik. Paşinyan da bunu istəmir. O etdiyi inqilabın eyforiyası tam yatıb.

Çünki xalqa meydanlarda verdiyi sözü tuta bilmədi, yalançı çıxdı. Ölkəsinin daxilində inqilabın yalnız acı nəticələrini xalqına dadızdıran, onları bu adla aldadan bir lider indi də həmin taktikanı beynəlxalq mövzudakı nizamlanma prosesinə cəlb etmək istəyir. Çox uğursuz taktikadır. Elə buna görə də Paşinyan bunun üstündən sükutla keçməli oldu.

***Məhəmmədəli QƏRİBLİ***

# Qondarma "Artsaxın öz ordusu", Paşinyanın oğlunun əsgərliyi və İlham Əliyevin tutarlı "80 min ordu" arqumenti...

## *İbrahim Rüstəmli: "Dağlıq Qarabağda nə qədər yerli erməni var ki, onların bir belə özünümüdafiə qüvvələri olsun?!"*

**Məlum olduğu kimi, regionun siyasi gündəminin əsas müzakirəsi Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilmiş panel müzakirədir.**



Dünya mediasının diqqətlə izlədiyi panel Prezident Əliyevin Ermənistan Baş nazirinə tarix və siyasət dərsi keçməsilə yadda qaldı. Paşinyan tarixi faktları təhrif etməsi, diletant siyasi təhlili, arqumentsizliyi ilə növbəti dəfə çıxılmaz duruma düşdü.

Müzakirələrdə Paşinyan guya Dağlıq Qarabağın yerli özünümüdafiə qüvvələri tərəfindən qorunduğunu dedi. Onun bu arqumenti gülünc təsir bağışladı. Eyni zamanda, Prezident İlham Əliyev tutarlı arqumentlərlə bunun belə olmadığını Paşinyana sübut etdi: "Baş nazir Dağlıq Qarabağın dırnaqarası özünümüdafiə qüvvələrindən danışanda, o, bir daha həqiqətə uyğun olmayan sözlər söyləyir. O, çox yaxşı bilir və mən də bilirəm ki, dırnaqarası Dağlıq Qarabağ ordusunun 80 faizini Ermənistan vətəndaşları təşkil edir. Bu, həqiqətdir. Bəlkə, 80 faizdən də artıqdır. Buna görə "Dağlıq Qarabağ ordusu" anlayışı yoxdur. "Dağlıq Qarabağ Respublikası" anlayışı yoxdur. Münaqişənin yalnız iki tərəfi var: Ermənistan və Azərbaycan. ATƏT-in Minsk Qrupunun həmsədrlərindən soruşun: münaqişə tərəfləri kimlərdir? Onlar da eyni sözləri söyləyəcəklər: Ermənistan və Azərbaycan. Dağlıq Qarabağ deyil".

Bütün bunlarla yanaşı, doğrudan da Dağlıq Qarabağ Ermənistandan ayrı bir qurumdursa, özünümadafiə qüvvələri varsa, o zaman Paşinyanın oğlu Qarabağda niyə hərbi xidmət keçir?

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, Paşinyanın separatçı qurumun "ordusu" barəsində səsləndirdiyi fikirlər onu gülünc duruma saldı: "Orada Paşinyanın oğlunun Qarabağda xidmət etməsi məsələsi ortaya çıxdı. Paşinyan istədi bunu onunla əsaslandırsın ki, oğlu guya könüllü şəkildə orada xidmət edir. Əslində isə orada könüllü söhbəti yoxdur. Zorən Ermənistan ordusu Qarabağda saxlanır. Dağlıq Qarabağda nə qədər yerli erməni var ki, onların bir belə özünümüdafiə qüvvələri olsun?! Deməyim odur ki, bu fikirlərin heç bir əsası yoxdur. Ermənistanın özündə bəzən elə vəziyyət yaranır ki, bir nəfər də olsun hərbi xidmətə könüllü gedən olmur. Müxtəlif vasitələrlə insanları hərbi xidmətə aparırlar. Bunların hamısı faktdır.

*"Bu gün Qarabağda Azərbaycan Ordusu ilə üzbəüz dayanan Ermənistan silahlı qüvvələridir"*

Sadəcə, Paşinyan klon kimi ortaya düşərək olmayan şeyləri uydurur. Bu gün Qarabağda Azərbaycan Ordusu ilə üzbəüz dayanan Ermənistan silahlı qüvvələridir. Bunu bilməyən yoxdur. Paşinyan nə qədər arxayın davranmağa çalışsa da, bu onda alınmadı. İlham Əliyevin özünə inamlı çıxışı qarşısında Paşinyan çox cılız görünürdü. Bir daha bütün dünyaya bəlli oldu ki, Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələri mövcuddur. Prezident İlham Əliyevin əsaslı arqumentləri bir daha bunu dünya mediasının gözü qarşısında sübut etdi".

***Vidadi ORDAHALLI***

# İlham Əliyev və Paşinyan ingilis dilinə hansı səviyyədə sahibdir - dilçilərin rəyi...

## *Azər Həsrət: "Paşinyan Prezident İlham Əliyevin qarşısında özünü mükəmməl bir universitet professoru qarşısında ingilis dilini yeni öyrənməyə başlayan birinci kurs tələbəsi kimi apardı"*

**Fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilən panel müzakirələr bütün dünyanın diqqət mərkəzindədir.**




Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən debatda diqqətçəkən məqamlardan biri onların ingilis dilində danışmasıdır. Bu gün mediada və sosial şəbəkələrdə də diqqəti cəlb edən məsələ İlham Əliyev və Nikol Paşinyanın ingilis dilini bilmə səviyyələridir.

İlham Əliyevlə Paşinyanın ingilis dilini bilmə səviyyəsini hansı dərəcə ilə qiymətləndirmək olar?

Qeyd edək ki, sosial şəbəkələrdə Prezident İlham Əliyevin ingilis dilini olduqca yüksək səviyyədə bildiyi və danışdığı, Paşinyanın isə "çulunu sudan güclə çıxardığını" bildirirlər.

Siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, o, cənab Prezidentlə Paşinyanın debatına orijinal variantda baxıb: "Mən bu debatı məqsədli şəkildə ingilis dilində izləmək istədim. Çünki, hər halda, mənim üçün Paşinyanın bu vəziyyətdə özünü necə aparması maraqlı idi. Cənab Prezidentin ingilis dilində etdiyi çıxışları şəxsən canlı olaraq izləmişəm. Prezident İlham Əliyevin çıxış etdiyi tədbirlərdə iştirak etmişəm və onun ingilis dilində necə səlis, qüsursuz danışdığının şahidi olmuşam. Cənab Prezidentin, ümumiyyətlə, dil və nitqlə bağlı heç bir problemi yoxdur. Azərbaycan Prezidenti necə Azərbaycan dilində səlis danışırsa, eləcə də həm rus, həm də ingilis dilində danışır. Hətta dili bilməyən adamlar belə fikir verib görə bilərlər ki, cənab Prezident ingilis dilində danışarkən heç vaxt duruxmur, dayanmır, söz axtarmır, öz fikini ifadə etməkdə heç bir çətinlik çəkmir. İngilis dilini bilən bizim kimi insanlar da onun çıxışını diqqətlə izləyib görürük ki, o bir ingilis qədər bu dili normal danışır. Bu da təsadüfi deyil, çünki Azərbaycan Prezidenti çox təcrübəli bir siyasət adamıdır, dövlət rəhbəridir, üstəlik də xarici dillərlə bağlı onun heç bir problemi yoxdur. Paşinyan Prezident İlham Əliyevin qarşısında özünü mükəmməl bir universitet professoru qarşısında ingilis dilini yeni öyrənməyə başlayan birinci kurs tələbəsi kimi apardı. Paşinyan həqiqətən də bu dili yüksək səviyyədə bilmir, danışarkən tez-tez duruxurdu, dayanırdı, danışmaq üçün söz axtarırdı, bir sözü tapa bilməyəndə başqa söz tapıb onun yerinə qoyub birtəhər özünü ifadə etmək istəyirdi. Yəni Paşinyanın ingilis dili səviyyəsini İlham Əliyevin səviyyəsi ilə heç cür müqayisə etmək olmaz".

*"Prezident İlham Əliyev bu debatda həm də Paşinyana natiqlik dərsi vermiş oldu"*

A.Həsrət hesab edir ki, Prezident İlham Əliyev başqa məsələlərdə olduğu kimi, nitq, dilbilmə baxımından da Paşinyana dərs vermiş oldu. "Biz neçə gündür deyirik ki, cənab İlham Əliyev Nikol Paşinyana bir tarix, beynəlxalq hüquq dərsi verdi. Eyni zamanda, Prezident İlham Əliyev bu debatda həm də Paşinyana natiqlik dərsi vermiş oldu. Yəni auditoriyada oturanlar da, debatı izləyənlər də bunu gördülər, hiss etdilər.

**Üstəlik də o debatın videosu çox geniş yayıldı və müzakirə edildi. "Facebook"da o paylaşma 200 min dəfəyə qədər baxılıb. Həqiqətən də çox maraqlı və canlı debat alınmışdı və bu debatın birmənalı qalibi Prezident İlham Əliyevdir. Onun ingiliscə danışması ilə bağlı bir daha qeyd edim ki, onun dil səviyyəsi əsla heç bir sual doğura bilməz" - deyə qeyd edən A.Həsrət bildirdi ki, biz ölkəmizi İlham Əliyev kimi bacarıqlı, savadlı, təcrübəli bir liderin təmsil etməsilə qürur duymalıyıq.**

***İradə SARIYEVA***

# Erməni mediası Paşinyanı göyərçinə, İlham Əliyevi şahinə bənzətdi...

**Şakir Ağayev:** *"Prezident İlham Əliyevin erməni mediası tərəfindən şahinə bənzədilməsi onun siyasi lider kimi Ermənistan Baş nazirindən çox üstün olduğunu bir daha sübut etdi"*

**Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş Naziri Nikol Paşinyan arasında baş tutan debat erməni Baş nazirin öz ölkəsində ciddi tənqidlərə, təhqirlərə məruz qalması ilə nəticələnib.**



Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirədə Azərbaycan Prezidentinin savadı, təcrübəsi, natiqlik məharəti, Paşinyanın yalanını tutaraq onu ifşa etməsi erməni mediasında əsas çözülən məsələlərdən biridir. İlham Əliyevin 45 dəqiqəlik müzakirələr zamanı Paşinyandan daha arqumentli danışması, onun üzərində psixoloji üstünlük əldə etməsi Ermənistan mətbuatının da diqqətindən yayınmayıb.

Ermənistanın "Tert.am" saytı bir neçə aparıcı ekspertin iştirakı ilə debatda Paşinyanın və İlham Əliyevin arqumentlərini incələyib. Sözügedən mətbuat orqanında qeyd edilir: "İlham Əliyevin özünü aparması, periodik olaraq Paşinyanın çıxışlarına təbəssümü, bəzən isə açıq şəkildə gülməsi müharibədə məğlub olan tərəfin biz olduğu təəssüratı yaradırdı. Hətta Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov da Nikol Paşinyana güldü və bu, nazirin hökumət rəhbərimizə, həm də dövlətimizə hörmət etmədiyinin göstəricisi idi. Əslində, özü ilə bu cür davranmağa şərait yaradan Paşinyan bu vəziyyətə görə təqsirkardır.

İndi təsəvvür edirsiniz bağlı qapılar arxasında nələr baş verir? Münhendə hamı gördü ki, kulis arxasında kim diktə edir, kim isə baş əyir. Azərbaycan tərəfi ənənəvi arqumentlərini təkrarladı. Paşinyan görünür ki, buna hazır deyildi və mənasız "münaqişə hər üç xalqın: Azərbaycan, Ermənistan və Qarabağın maraqlarına cavab verməlidir" tezisindən başqa heç nə deyə bilmədi. Tarixi mübahisələri kənara qoysaq, Əliyev növbəti dəfə danışıqlar tələbini açıq ortaya qoydu, Paşinyan isə növbəti dəfə yox...

Rəsmi Bakı Qarabağı öz tərkibində görmək, Şuşa və digər yaşayış məntəqələrini qaytarmaq istəyir. Əliyev mərhələli həll variantını: ətraf 7 rayonun qaytarılmasını, məcburi köçkünlərin öz torpaqlarına qaytarılmasını və s. istəyir.

Paşinyan isə İlham Əliyevin şahin kimi göründüyü müzakirələrdə Qərbin dəstəyini almaq üçün özünü sülh göyərçini kimi təqdim edirdi. Amma bu çox təhlükəli oyundur, xüsusən Münhendə"-deyə məqalədə deyilir.

Erməni mətbuatının Prezident İlham Əliyevi şahinə bənzətməsinin səbəblərini şərh edən "Novoe vremya" qəzetinin baş redaktoru, siyasi şərhçi Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, Prezidentin çıxışı böyük əks-səda yaradıb: "Biz də o debata baxdıq və bir azərbaycanlı kimi Prezidentin üstünlüyünün şahidi olduq. Nəinki şahidi olduq, həm də böyük qürur hissi keçirdik ki, Azərbaycan Prezidenti işğalçı Ermənistanın Baş nazirini çıxılmaz vəziyyətdə qoydu. Bütün debat boyu İlham Əliyevin istər tarixi, istərsə də siyasi nöqteyi-nəzərdən daha hazırlıqlı, daha üstün olduğu bir daha görsəndi. Prezident Qarabağ tarixi ilə bağlı da çox mühüm tarixi faktlar səsləndirdi. Hətta Qafqaz bürosunun qərarından da danışdı və o, Paşinyanın Qafqaz bürosunun qərarından da xəbərsiz olduğunu sübut etdi. Qafqaz bürosunun qərarı 1921, 1923-cü illərdə verilib, iki qərar olub. İlham Əliyev tarixi faktlarla bunu da sübut etdi. O, orada Xankəndi ilə bağlı danışdı və xüsusi vurğuladı ki, onun adı tarixən Xankəndi olub. Bilirsiniz ki, xan sözü də, kənd sözü də bizə məxsusdur, türk-Azərbaycan sözüdür. Prezident qeyd etdi ki, ermənilər bura köçürüldükdən sonra Sovet dövründə Xankəndinə Stepan Şaumyanın adı verilib. Paşinyanın hətta keçmiş kənd rayonu Şaumyanın Qarabağa aid olduğunun deməsi açıq göstərdi ki, onun nə Qarabağdan, nə də tarixdən xəbəri var. İlham Əliyev yerindəcə onun dediklərinin səhv olduğunu qeyd etdi və Paşinyanın Qarabağa aidiyyəti olmayan bir rayonun Qarabağa aid edilməsinin də yalan olduğunu qeyd etdi, Paşinyanın üzr istəməsinə nail oldu. Başqa bu kimi məsələləri Prezident İlham Əliyev tarixi faktlarla sübut etdi ki, Paşinyan həm tarix, həm siyasət sahəsində Azərbaycan liderindən zəifdir. Təbii ki, bütün bunlar Azərbaycan liderinin Paşinyandan daha yüksəkdə, üstün olduğunu bir daha sübut edən amillərdir. Bunu təkcə biz görmədik, Avropanın mərkəzində Almaniyada (Almaniya həm də Avroittifaqın mərkəzidir - Ş.A.) keçirilən Münhen Təhlkəsizlik Konfransında iştirak edən, bu konfransı izləyən hər kəs gördü.

Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin çıxışı, Qarabağın tarixi Azərbaycan torpağı olduğunu tarixi faktlarla sübut etməsi, təbii ki, bir daha bütün dünyaya sübut idi ki, haqq-ədalət Azərbaycanın tərəfindədir, bu torpaqlar Azərbaycanın torpağıdır. Bu məsələdən sonra Avropa da, dünya da artıq Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini daha güclü şəkildə müdafiə etməlidir. Prezident İlham Əliyevin Paşinyandan üstünlüyü nəinki Ermənistan, hətta dünya mətbuatında qeyd edilir. Prezident İlham Əliyevin erməni mediası tərəfindən şahinə bənzədilməsi onun siyasi lider kimi Ermənistan Baş nazirindən çox üstün olduğunu bir daha sübut etdi. Ermənilər özləri də bu üstünlüyü çox aydın hiss etdilər".

***İradə SARIYEVA***

# Azərbaycanın Türkiyəyə göstərdiyi dəstək əvəzsiz sayıldı - türkiyəli diplomat



**Azərbaycanın Türkiyəyə hər sahədə göstərdiyi dəstək əvəzsizdir və heç şübhəsiz ki , Türkiyə bundan sonra da qardaş Azərbaycanı bütün sahələrdə dəstəkləyəcək.**

Bunu "Trend"ə Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat katibi Hüseyn Altınalan deyib.

Diplomat qeyd edib ki, Türkiyə Azərbaycan münasibətləri dövlət səyləri nəticəsində daha da möhkəmlənməkdədir: "Bu gün Azərbaycan və Türkiyəni tarixi və milli köklərlə yanaşı, eyni zamanda dünya əhəmiyyətli enerji, iqtisadi və nəqliyyat layihələri birləşdirir".

Mətbuat katibi bildirib ki, Azərbaycan və Türkiyənin dünya əhəmiyyətli layihələrə imza atmasının başlıca səbəblərində biri də iki qardaş ölkədə olan stabillikdir. Bu da ölkə prezidentlərinin uğurlu siyasətinin bəhrəsidir.

Diplomatın sözlərinə görə, şübhəsiz ki, Azərbaycan və Türkiyənin uğurlarına kölgə salmaq istəyən qüvvələr də mövcuddur: "Bu qüvvələrdən biri də FETÖ terror təşkilatıdır. Bu gün FETÖ terror təşkilatı Türkiyə üçün başlıca təhlükələrdən birdir. Təşkilat qırx ildən çox müddətdə Türkiyənin müxtəlif qurumlarına sızmış və gizli fəaliyyət göstərmişdir. Bu terror təşkilat din adı ilə maskalanıb, əslində isə dinlə heç bir əlaqəsi olmayıb. Qardaş Azərbaycan FETÖ ilə mübarizədə də Türkiyəni tək buraxmayıb və hər cür dəstək göstərib. Dolayısı ilə Azərbaycan Türkiyənin FETÖ ilə mübarizəsində ən böyük dəstəkçilərdəndir".

H.Altınalan vurğulayıb ki, FETÖ sadəcə Türkiyə üçün deyil, eyni zamana bütün ölkələr üçün də real təhlükədir: "FETÖ mənsubları sızdıqları qurumlarda öz dövlətlərinin maraqlarını deyil, onlara dəstək verən və himayə edən dövlətlərin maraqlarına xidmət edirlər, özlərindən olamayan şəxslərə qarşı hər cür təxribat aparırlar. FETÖ üzvləri olduqları yerlərdə ölkə əleyhinə fəaliyyət göstərmək üçün ciddi fürsət gözləyirlər. Yalan, iftira və hiyləgərlik təşkilat mənsublarının xüsusiyyətlərindən sadəcə bəziləridir".

Türkiyəli diplomat hesab edir ki, artıq FETÖ üzvlərinin gücü azalıb, onlarla mübarizəyə ara verməmək və sona qədər mübarizə aparmaq lazımdır.

# Münhen debatında Minsk Qrupu həmsədrlərinə və dünya birliyinə müraciətin əsas acısını Paşinyan sonra dadacaq...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə çıxışı zamanı deyib ki, ATƏT-in Minsk Qrupu həmsədrləri, nəhayət, Ermənistan tərəfinə çox aydın şəkildə izah etməlidirlər ki, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ müstəqil ölkə deyil!**

## ***Samir Adıgözəlli:*** *"Prezidentin ATƏT və dünya birliyinə etdiyi çağırış Münhen Konfransının mahiyyətinə tam uyğundur"*




*"Biz dünyada təhlükəsizliyin təmin olunmasını istəyiriksə..."*

Dövlət başçısı bildirib: "İlk növbədə, mən bir şərh vermək istərdim. Mən tamamilə əminəm ki, biz hər ikimiz buraya həqiqəti demək üçün gəlmişik. Mənim giriş nitqimdə dediklərim 100 faiz həqiqətdir. Hansılar ki, elə indi yoxlanıla bilər. Sadəcə, internetə daxil olub istinad etdiyim həmin sənədləri taparaq siz kimin həqiqəti deyib-demədiyini anlaya bilərsiniz. İkinci şərhim budur. Mən, təəssüf ki, ermənilərin Xocalıda törətdiklərinə bəraət qazandırmaq cəhdinə çevrilmiş bu vəziyyətə aydınlıq gətirmək istərdim. Prezident Ayaz Mütəllibovun səhhəti çox yaxşıdır və Bakıda yaşayır. Ola bilsin ki, Ermənistan tərəfi bunu bilmir. O, bu yaxınlarda və bir neçə dəfə deyib ki, o, heç vaxt Xocalı soyqırımının azərbaycanlılar tərəfindən təşkil edildiyini deməyib. Günümüzdə deyildiyi kimi, bu, "feyk" xəbərdir. Rusiyadakı bəzi erməni jurnalistlər tərəfindən icad olunub və Rusiya mətbuatında dövriyyəyə buraxılıb. Lakin o, heç vaxt bunu deməyib. Bu, tamamilə bir həqiqətdir. Xocalıda soyqırımı törədənlərin adları hamıya məlumdur. Onlar yerli ermənilər idi, Ermənistandan olan ermənilər və diaspordan olan ermənilər idi. Bu şəxslərin adları hamıya məlumdur. Bu barədə çoxlu kitablar və beynəlxalq məqalələr çap olunub. Ona görə azərbaycanlıların özlərinin 63 uşağı, 100 qadını vəhşicəsinə öldürdüyünü demək, eyni zamanda, 1000 nəfərin itkin düşdüyünü söyləmək, bu, sinizmin zirvəsidir.

Beynəlxalq ictimaiyyətin nə etməli olduğu məsələsinə gəlincə, düşünürəm ki, ən vacib olan odur ki, beynəlxalq ictimaiyyət, - biz beynəlxalq ictimaiyyətdən danışan zaman əsasən ATƏT-in Minsk Qrupu həmsədrlərinin səylərini nəzərdə tuturuq, - onlar, nəhayət, Ermənistan tərəfinə çox aydın şəkildə izah etməlidirlər ki, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ müstəqil ölkə deyil! Heç kim bu qeyri-qanuni qurumu tanımır. Bu, birincisidir. İkincisi, düşünürəm ki, Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməklə bağlı beynəlxalq təzyiq daha çox Ermənistana göstərilməlidir. Çünki BMT Təhlükəsizlik Şurasından daha yuxarı olan beynəlxalq orqan yoxdur. Onlar 4 qətnamə qəbul ediblər. Onları yoxlamaq çox asandır. Mütəxəssislərə onların nömrələri məlumdur. Onlar nə deyir: erməni qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Təkcə Dağlıq Qarabağ işğal edilməyib. Həmçinin, onun ətrafındakı 7 rayon da işğal olunub. Ermənistan bunu gizlətmək istəyir. Bu, o 7 rayondur ki, ermənilər heç vaxt orada yaşamayıb. 1989-cu ilin son sovet əhali siyahıyaalınmasında Dağlıq Qarabağın əhalisi 189 min nəfər olaraq qeydə alınıb. Onlardan 139 mini ermənilər, 48 mini azərbaycanlılar və digər xalqların nümayəndələri idi. Beləliklə, Dağlıq Qarabağ və qədim şəhərimiz olan Şuşadan bütün azərbaycanlılar etnik təmizləməyə məruz qalıb. Sonra bütün azərbaycanlılar 7 rayonda etnik təmizləməyə məruz qalıb. Ermənilər bizim xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədiblər, məscidlərimizi, məzarlarımızı dağıdıblar, şəhərlərimizin adlarını dəyişdiriblər. Onlar hazırda bütün işğal edilmiş ərazilərdən ibarət olan Dağlıq Qarabağın xəritəsini çap ediblər. Sonra onlar deyirlər ki, biz bu reallıqlarla razılaşmalıyıq. Ona görə də beynəlxalq ictimaiyyət izah etməlidir ki, Dağlıq Qarabağ Azərbaycandır. İkincisi, təcavüzkara ciddi təzyiq göstərməlidir ki, dayansın. Baş nazir... bir dəqiqə gözləyin... Baş nazir indicə sülhdən danışdı. Yaxşı, mən razılaşıram. Lakin onda bu, bu gün baş verənlə, təmas xəttində azərbaycanlı əsgərin erməni snayperi ilə öldürülməsi ilə necə uzlaşır?"

Ölkə başçısının ATƏT-in Minsk Qrupu həmsədrlərinə və dünya ictimaiyyətinə etdiyi bu müraciəti necə dəyərləndirmək olar?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İlham Əliyevin iki mühüm məqama istinad etməsi təsadüfi deyil: "Təəssüflər olsun ki, münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk Qrupu doğrudan da heç bir irəliləyişə imza atmır. Artıq vəziyyət o yerə çatıb ki, İlham Əliyev onlara konkret mətnlə müraciət edir. Deyir ki, Ermənistanı başa salsınlar ki, Qarabağ Ermənistan və müstəqil ölkə deyil və olmayacaq da. Dağlıq Qarabağın müstəqil olduğunu kim bəyan edir? Paşinyan bunu açıq mətnlə bəyan edirsə və buna həmsədrlər kəskin bəyanat vermirsə, deməli, onlar öz missiyalarını layiqincə yerinə yetirmirlər. Sonra da Paşinyan kimi adamı gətirib onunla danışıq təşkil edirlər. Bəli, bu cür prinsipial məsələ ilə bağlı ATƏT-in Minsk Qrupu konkret bəyanat verməlidir. Ütülü və növbətçi bəyanat tonunda yox. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası ilə bağlı beynəlxalq təzyiqin artırılması da yerində edilən tələbdir. Bu məsələdə də ikili standartlara yol verirlər. Eyni qurumun qəbul etdiyi qətnamələr başqa ölkələrlə bağlı dərhal yerinə yetirilib.

**Hətta həmin qətnamələrin icrasına BMT-nin sülhməramlıları da cəlb ediliblər. Ermənistana bu yöndə göstərilən ərköyün münasibət regionda sülhə və təhlükəsizliyə böyük təhdid yaradır. Cənab Prezidentin ATƏT və dünya birliyinə etdiyi çağırış Münhen Konfransının mahiyyətinə tam uyğundur. Çünki biz dünyada təhlükəsizliyin təmin olunmasını istəyiriksə, əvvəlcə ona təhdid yaradan amillərə qarşı mübarizəni gücləndirməliyik. Hesab edirəm ki, Prezidentin bu çağırışı ünvanlandığı dairələrin hərəkətə gəlməsi üçün bir impuls olacaq".**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Münhendə baş verənlər bütün ümidləri sarsıtdı" - Ermənistanda ictimai rəy...

**Fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində baş tutan Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasındakı canlı debat Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya ictimaiyyətinin bir daha əsl reallıqlarla tanış olmasına gətirib çıxardı.**

Burada bir mühüm məqam o oldu ki, debat fonunda Qarabağ məsələsi ilk dəfə olaraq beynəlxalq ekspertlərin iştirakı ilə müzakirə predmetinə çevrildi.

Artıq yenə dünya miqyasında, o cümlədən Ermənistanda açıq qəbul edilir ki, Azərbaycan prezidenti erməni baş nazirə beynəlxalq auditoriya qarşısında tarix və siyasət dərsi verdi. Ermənistanın baş naziri isə bunun əvəzində tarixi faktları qəsdən təhrif etməklə vəziyyətdən çıxmağa çalışsa da, faktiki olaraq özünü bir neçə dəfə gülünc vəziyyətə saldı. Halbuki, prezident İlham Əliyev bu debat vasitəsilə canlı yayımda dünyanın gözü qarşısında Qarabağ münaqişəsi ilə bağlı konkret faktları və hazırkı vəziyyəti dünyanın diqqətinə çatdırdı. Yuxarıda qeyd olunduğu kimi, Paşinyana verilən dərs Ermənistanın özündə də açıq etiraf olunur. Məsələn, erməni politoloq Haqik Hambaryan bu xüsusda bildirir: "Paşinyanın bir çox məsələlərlə bağlı məlumatsızlığı Ermənistan və Qarabağın gələcəyini təhdid edir. Fevralın 15-də Münhendə baş tutmuş Paşinyan-Əliyev debatı bir çoxlarını sevindirdi, bir çoxları üçün isə məyusluq və qorxu yaratdı. Əsasən hökumətyönlü və ya Qarabağ münaqişəsindən xəbərsiz olan insanlar fərqinə varmadılar ki, Ermənistanın baş naziri məsələ ilə bağlı vacib məlumatlara nə qədər pis sahibdir". Ermənistan müdafiə nazirinin sabiq müavini Artak Zakaryan da eyni mövqedən çıxış edir: "Qarabağ məsələsində Paşinyandan nə zamansa müsbət irəliləyiş, yaxud həllər gözləməmişəm və bu barədə danışmışam. Münhendə baş verənlər mümkün olan bütün ümidləri sarsıtdı. Azərbaycan prezidenti İlham Əliyev danışıqlar prosesində mərhələli həll yolu barədə danışdı. Yəni müəyyən ərazilərin qaytarılması, qaçqın və köçkünlərin geri dönməsi, münasibətlərin normallaşdırılması, daha sonra Azərbaycanın daxilində birgə yaşayış. Paşinyan Əliyevin bu tezislərinə tam cavab vermədi, birtəhər Düşənbə görüşü, Qarabağın təhlükəsizliyi və münaqişənin tarixi haqqında danışdı. Hamının gülüşünə səbəb olan "mikro, mini inqilablar" barədə uzun danışmağın, özünü tərifləməyin mənası nə idi? Ermənistan bundan nə qazanır? Paşinyan o qədər sadəlövhdür ki, təqdir olunacağına və ya Ermənistan üçün qalib mövqe əldə etməyə ümid edir.

Aparıcının Ermənistanın beynəlxalq ictimaiyyətdən nə gözləməsinə dair sualına cavabında isə Paşinyan qeyd edib ki, beynəlxalq birlik münaqişənin hərbi yolla həll oluna bilməyəcəyini bəyan etməlidir. Bu, min dəfə və bizim gözləntilərimiz olmadan edildi. Bunun əvəzində isə İlham Əliyev qeyd edir ki, beynəlxalq birlik Ermənistana qoşunlarını işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması üçün təzyiq göstərməlidir". O əlavə edib ki, Azərbaycan prezidenti ermənilərə öz müqəddəratını təyin etmək üçün başqa bir yer tapmağı tövsiyə edərkən, Paşinyan niyə yenidən böyük Tiqran dövrünə qayıdır və iştirakçıların gülüşünə səbəb olur: "Keçmişin xatirələri və tarixlə mübahisənin mənası nədir? Qorxaq, müdafiə olunmağa çalışan və xəcalət yaradan bir rəhbər beynəlxalq müzakirələrdə danışmaq hüququna malik deyil. Eyni hal qapalı görüşlərdə də baş verirmi? Münhen debatının təhlükəsizlik baxımından dünyaya nə verdiyini bilmirəm, amma ölkəmizin hərbi-siyasi təhlükəsizliyi baxımından ciddi nəticələr çıxarılmalıdır. Uzun müddət azərbaycanlılar "işğal olunmuş ərazilər" ifadəsini hətta ictimai təşkilatların sənədlərində də daxil edə bilmirdilər, amma indi bunu ən yüksək səviyyədə bəyan edirlər, biz tərəfdən isə cavab yoxdur. Əliyev bir daha qeyd etdi ki, danışıqlar prosesində məsələni mərhələli həllə doğru aparırlar. Yəni bəzi ərazilərin geri qaytarılması, qaçqın və məcburi köçkünlərin yenidən məskunlaşdırılması, münasibətlərin normallaşdırılması, daha sonra Azərbaycan tərkibində milli azlıq kimi xoşbəxt, qayğısız həyat və sair. Paşinyan Düşənbədə Qarabağın təhlükəsizliyi və konfliktin tarixindən qarmaqarışıq danışaraq Əliyevin bu müşahidəsinə tam cavab vermədi".

Daşnaksütun partiyasının üzvü Lilit Qalstyan isə bildirir: "Diplomatiya, ictimai danışıq çox danışmağı-boşboğazlığı sevmir, xüsusilə də malik olmadığın bir dillə. Paşinyan da naşı bir diplomat olduğunu Münhendə Əliyevin qarşısında göstərdi. Paşinyan əvvəlcə öz səhvlərini görmək, sonra düzəltmək qabiliyyətinə sahibdirmi? Bəs səhvlər çox və düzəlməzdirsə? Paşinyanın səhvləri çox olsa da, o bunları düzəldə bilmir". Erməni publisist Vahan İşxanyan isə qeyd edib ki, Paşinyan Ermənistanda yalan danışmağı səlis bacarır, Əliyev qarşısında isə həqiqəti hıqqanaraq da söyləyə bilmir: "Paşinyanın niyə hər zaman yalan danışdığı məlumdur, çünki həqiqəti bilmir".

Erməni yazıçısı Anna Turcotte isə Paşinyanın Münhen təhlükəsizlik konfransı çərçivəsində İlham Əliyevin qarşısında gülünc vəziyyətə düşməsini baş nazirin kütlüyü ilə izah edib. Erməni yazıçısı vurğulayır ki, məhz Paşinyanın tarixdən xəbərsiz olması, siyasi diskussiyaya lazımınca hazırlaşa bilməməsi onu, onun timsalında isə bütün Ermənistanı gülünc vəziyyətdə qoyub. Paşinyanın Azərbaycan prezidentinə bütün parametrlərdə uduzduğunu bildirən Turcotte Ermənistan baş naziri haqqında "ayıb olsun" ifadəsini işlədib. Beynəlxalq münasibətlər sahəsində ekspert, Corctaun İnstitutunun professoru Brenda Şaffer də Paşinyanın aciz duruma düşdüyünü vurğulayır. O burada bir fakta diqqət yetirir: "Nikol Paşinyan, siz Münhen Təhlükəsizlik Konfransında Dağlıq Qarabağın Ermənistandan ayrı hüquqi subyekt olduğunu bəyan etmisiniz. O zaman niyə sizin öz oğlunuz Dağlıq Qarabağda xidmət edir?". Brenda Şaffer Münhendə Ermənistanın işğal siyasətinin mahiyyətinin tam ifşa olunduğunu xüsusi qabardır. Rusiya Federasiyasının İctimai Palatasının üzvü Sergey Markov da bildirir ki, Azərbaycan prezidenti İlham Əliyevin böyük diplomatik istedadı Paşinyanın gülünc duruma düşməsi ilə nəticələndi:"Əlbəttə, Azərbaycan prezidenti İlham Əliyevin böyük diplomatik istedadını, dünya liderləri ilə ünsiyyət təcrübəsini nəzərə alanda, onun Nikol Paşinyan üzərində qələbə qazanması təəccüblü deyil. Üstəlik, həqiqət Azərbaycan prezidentinin yanındadır. Çünki hamı bilir ki, Dağlıq Qarabağ və ətrafındakı ərazilər işğal olunub, orada etnik təmizləmə aparılıb. Tarixə ekskursiyalar barəsində isə onu deyə bilərik ki, Nikol Paşinyanın Böyük Tiqranla əlaqəli açıqlaması, yəqin ki, kiçik millətin bir növ yeniyetməlik kompleksinin irrasional şüurunun təzahürüdür".

Ekspertin fikrincə, dünya üçün bir daha aydın oldu ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması region üçün mütləq vacibdir: "Əsas ziddiyyət bundan ibarətdir ki, indi fərqli güc nisbəti mövcuddur. Azərbaycan 30 il əvvəl olduğu kimi deyil. Əlbəttə ki, Bakı Qarabağın və ətraf rayonların qaytarılmasını tələb edəcək. "DQR", Azərbaycanın işğal olunmuş digər rayonları kimi, beynəlxalq ictimaiyyət tərəfindən tanınmayıb. Onlar Azərbaycanın ayrılmaz hissəsidir. Məhz Azərbaycan dinc və ya hərbi yolla onları qaytarmaq hüququna malikdir. Dağlıq Qarabağda və ətraf ərazilərdə kütləvi etnik təmizləmə aparıldığı, azərbaycanlıların qovulduğu açıq-aydın görünür. Deməli, Qarabağın "müstəqilliyini" tanımaqdan söhbət belə gedə bilməz. Etnik təmizləmənin nəticələri tanına bilməz. Təəssüflə etiraf etməliyəm ki, yenidən hərbi əməliyyatlar təhlükəsi artır, bunu əvvəllər də demişdim. Azərbaycan isə Ermənistan Silahlı Qüvvələrindən xeyli üstün olan orduya sahibdir. Bundan əlavə, Azərbaycanın güclü iqtisadiyyatı digər ölkələrə rəsmi Bakının haqlı olduğunu göstərir". Ekspert xatırladır ki, dinc yolla nizamlama planı var: "Bəli, "Kazan düsturu" hazırlanmışdı. Bu, irəliyə doğru bir addımdır. Bunun mahiyyəti Ermənistanın Dağlıq Qarabağ ətrafındakı işğal etdiyi əraziləri Azərbaycana qaytarmasıdır. Buna cavab olaraq, Azərbaycan Ermənistanın iqtisadi blokadasını ləğv edib bu ölkə ilə Qarabağ bölgəsi arasında əlaqə qurmaq üçün dəhliz qoyur. Bundan sonra sülhməramlıların daxil olması, Qarabağın müvəqqəti statusunun müəyyən edilməsi məsələlərinin müzakirəsi gəlir. Bu, münaqişənin güc yolla həlli variantından qaçmağa kömək edəcək. "Kazan düsturu" masadadır və həyata keçməlidir. Ancaq təəssüf ki, Nikol Paşinyan qorxur. Buna görə də o, bu kompromisi Qarabağın erməni icması ilə "bölmək" istəyir. Bu mənada, Nikol Paşinyanın Münhendəki çıxışı Qarabağın erməni icmasına etdiyi müraciət kimi də qiymətləndirilməlidir". Amerikalı politoloq, beynəlxalq münasibətlər sahəsində ekspert Piter Teys isə Münhen debatı barədə bildirir: "Azərbaycanın mövqeyi gələcəkdə Dağlıq Qarabağ münaqişəsinin həllində üstün olacaq, Bakının fəal diplomatiyası həmişə uğurlu olub.

Qeyd edim ki, çıxışı zamanı prezident İlham Əliyev Avropa təhlükəsizliyi üçün önəmli olan Azərbaycanın tam ərazi suverenliyinin vacibliyini vurğuladı. Hesab edirəm ki, Azərbaycan prezidenti bu vəziyyətdə uzaqgörən lider, Almaniya və Avropa ilə iqtisadi və təhlükəsizlik əməkdaşlığının daimi tərəfdarı kimi çıxış etdi". Müzakirələr zamanı Ermənistan baş nazirinin mövqeyi barədə danışan Teys Paşinyanın çaşqın və zəif lider kimi göründüyünü, əməli ilə sözlərinin üst-üstə düşmədiyini qeyd edib: "Paşinyan Dağlıq Qarabağdakı mövcud status-kvonu qorumağa çalışan sovet məmurudur. Rəsmi İrəvanın siyasətindəki yüksək korrupsiyalaşma bölgədəki silahlı qarşıdurmanı uzadır və erməni xalqını ifrat yoxsulluqdan əziyyət çəkməyə məcbur edir".Bütün bunlar bir daha təsdiq edir ki, Paşinyanın tarixi məlumatların təhrifi ilə "zəngin" olan iddialarına qarşı əsaslı faktlar gətirməklə prezident İlham Əliyev onu Münhendə çətin vəziyyətə salıb. Bu zərbədən isə Paşinyanın yaxın müddətdə özünə gələ biləcəyi inandırıcı görünmür.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Mifik Böyük Tiqrandan sonra Qafqazda cəmi "iki millət" tezisi də Paşinyanı gülünc vəziyyətdə qoydu

## *Faiq Ələkbərli: "Tarixi savadsızlığı hər kəsə məlum olan Paşinyanın Tiqranın dövründə bu ərazilərdə ermənilərdən və gürcülərdən başqa xalq olmadığını deməsi tamamilə əsassızdır"*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Tarix saxtakarlığı sevmir deyirlər. Doğrudur. Amma çox təəssüf ki, tarixi saxtalaşdıranlar var və onlar ən müxtəlif vasitələrlə tarixə saxtakarlıq donu geydirməyə çalışırlar. Ermənilər (haylar) 200 ilə yaxındır tarixi saxtalaşdırmaqla məşğuldurlar və bu neqativ prosesə cild-cild kitablar, metraj-metraj xəritələr çap ediblər.**

Çar Rusiyası tərəfindən Qafqaza köçürülən və bu torpaqlarda məskunlaşdıqdan sonra Azərbaycan ərazilərinə qarşı iddialar qaldıran, sonrakı dönəmlərdə torpaqlarımızı işğal edən ermənilər tarixi saxtalaşdırma sahəsində artıq liderdirlər. Artıq tarixi saxtalaşdırma siyasəti Ermənistan dövlətinin gerçək bir ideologiyasına çevrilib. Bu toplum yalana o qədər aludə olub ki, o, yalanları beynəlxaq tribunalardan da səsləndirir. Sözsüz ki, onların bu yalanları ifşa olunur, amma yenə də yalan danışmaqda davam edirlər. Fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında baş tutan debatda da Paşinyan erməni xislətinə sadiq qalaraq yalan danışıb. Bu dəfə o qədər ağ yalan danışıb ki, bütün dünyanı özünə güldürüb. Tarixi bilgisi çox zəif olan, siyasi cəhətdən hazırlıqsız Paşinyanın budəfəki uydurması Azərbaycan tarixçilərini hiddətləndirib. Qeyd edək ki, paneldə Paşinyanın "Cənab Prezident, bu, o qədər də konstruktiv olmadı. Lakin mən deyərdim ki, Böyük Tiqranın dövründə bizim regionda yalnız iki millət var idi: ermənilər və gürcülər" - deməsi tarixçilər və politoloqlar tərəfindən erməni Baş nazirin savadsızlığı, məlumatsızlığı və məlumatsızlıq üzərində qurulan növbəti saxtakarlığı kimi qiymətləndirilir. Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, Cənibi Qafqazın ən qədim sakini elə Azərbaycan türkləridir. "Paşinyanın belə bir açıqlama verməsi təsadüfi deyil. Bu, gürcülərin, ermənilərin və onların tarixən dayaqları olan Rusiya Federasiyasının bizə qarşı həyata keçirdiyi siyasətin nəticəsidir. Onlar həmişə belə bir siyasət yürüdüblər ki, türklər Qafqaza və Anadoluya gəlmədirlər. Əslində isə belə deyil və Azərbaycan türkləri Cənubi Qafqazın, Anadolunun yerli əhalisidir. Əli hər yandan çıxan və yalan uydurmaqdan başqa bir iş bacarmayan Paşinyanın dediyi Tiqrana gəlincə isə, o, eramızdan əvvəl, ikinci əsrdə Parfiya dönəminə (o həm də Roma imperiyasının vasallarından biri idi) aiddir.

Paşinyanın Azərbaycan türklərinin Cənibi Qafqaza gəlmə olduğunu iddia etməsi tamamilə əsassızdır. 200 ildir guya Azərbaycan türkləri bura xüsusən də Səlcuqlar dönəmində gəlib yerləşib, "yerli xalq olan" erməniləri, gürcüləri, farsdilli və qafqazdilli xalqları türkləşdirib kimi yanlış siyasət aparılır. Bir şey dəqiqdir ki, Azərbaycan türkləri, ən azından, 4-5 min ildir bu torpaqlarda dövlət qurublar. Burada türklərin Midiya, Manna, Kutilər kimi qədim, sonrakı dönəmdə Albaniya, orta çağlarda isə bir sıra dövlətlər qurması bəllidir. Biz o türk dövlətlərini indi, bütövlükdə, Azərbaycan dövləti adlandırırıq. Deyək Səfəvilər, Ağqoyunlu, Qaraqoyunlu və digər dövlətləri Azərbaycan dövləti adlandırsaq da, onlar türk dövlətləridir. O ki, qaldı ermənilərin iddia etdikləri Tiqrandan başlayan dövlətçiliyə, o dövlətçiliyin ermənilərə heç bir aidiyyəti yoxdur. O, Parfiyanın tərkibində olan kiçik bir çarlıq idi, müstəqil deyildi, gah Romadan, gah da Parfiyadan asılı idi.

Ermənilər həmişə Azərbaycan türklərini (Anadolu və digər türkləri də ) bura "gəlmə" elan etməklə guya müəyyən üstünlük qazanmaq istəyirlər. Lakin bunun heç bir əsası yoxdur. Tarixdə mövcud olan dövlətlərin də heç birinin indiki ermənilərə və Ermənistana dəxli yoxdur. Ermənistanı ermənilər Hayastan adlandırırlar, bu da 1918-ci ildə qurulub. Qafqazda ermənilərin heç bir dövləti olmayıb, dünyanın başqa bir yerində də kiçik bir çarlıq olubsa belə, onun indiki ermənilərə heç bir aidiyyəti yoxdur. Sadəcə, onlar bunu öz adlarına çıxırlar. Necə deyərlər, onlar özləri tarixi saxtalaşdırırlar, digər tərəfdən də əsassız uydurmalarla bizi ittiham edirlər. 1918-ci ilə qədər ermənilərin Cənubi Qafqazda dövləti olmayıb".

F.Ələkbərli hesab edir ki, ümumiyyətlə, Azərbaycan tarixçiləri özləri də tarixə, keçmişə baxışda daha dərin bilgiyə malik olmalıdırlar, ki, düşmənə danışmaq üçün heç bir əsas verməsinlər. Müsahibimiz təəssüflə vurğuladı ki, Sovet dövründə yazılan tarix kitablarında bizə təlqin edilən saxta tarixdən əl çəkməliyik. "Bütün dünya Midiya dövlətini bir türk dövləti olaraq qəbul edir. Midiya da, ən azından, e.ə. 8-7-ci əsrlərdə mövcud olub. O xüsusən 7-ci əsrdə daha qüdrətli bir dövlətə çevrilib. Bu cür əsassız iddialara qarşı özümüz vahid bir siyasət ortaya qoyaq ki, Paşinyan kimilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə imkan verməyək. Tarixi savadsızlığı hər kəsə məlum olan Paşinyanın Tiqranın dövründə bu ərazilərdə ermənilərdən və gürcülərdən başqa xalq olmadığını deməsi tamamilə əsassızdır, Cənubi Qafqazda mövcud olan qədim dövlətləri türklər qurublar" - deyə F.Ələkbərli bildirdi.



*"1918-ci ilə qədər ermənilərin Cənubi Qafqazda dövləti olmayıb"*

Qeyd edək ki, başqa tarixçilər də Paşinyanın yalan danışdığını və onun dediklərinin heç bir faktlara söykənmədiyini qeyd edirlər. Tarixçilər vurğulayırlar ki, ermənilər e.ə. 2-ci əsrdə Artaşesin dövründə guya qısa müddət ərzində müsəqil dövlətləri olduqlarını da iddia edirlər, əslində isə onların müstəqil dövləti olmayıb.

AMEA-nın müxbir üzvü mərhum alim İlyas Babayev yazıb: "E.ə. 96-95-ci illərdə Parfiya hökmdarları yanında girov olmuş II Tiqran şübhəli sazişlər vasitəsilə hakimiyyətini yaradır. Azacıq qüvvətlənən kimi, Suriyaya doğru hərəkət edir və bir neçə şəhəri ələ keçirir. E.ə. I əsrin 69-cu ildə Roma sərkərdəsi Lukullun başçılığı ilə şərqə doğru yürüş başlayır. Lukull Dəclə çayının yuxarı axarında yerləşən Tiqranakert şəhərini dağıdır. Erməni tədqiqatçısı Sarkisyan yazırdı ki, bu Tiqranakert şəhəri e.ə. 87-ci ildən tez olmayaraq salınmışdı. II Tiqran Qafqaza heç vaxt yürüş etməyib. Təbii ki, buna görə də Tiqranakert şəhəri Qafqazda olmayıb. Lukull Romaya çağırıldıqdan sonra növbəti yürüşü Pompey həyata keçirir və Tiqranı ağır məğlubiyyətə uğradır. Tiqran bütün xəzinəsini Pompeyə təqdim edir, özü də onun qarşısında diz çökür. Yəni ermənilərin Qafqazda heç bir dövləti yox idi. Təbii ki, insanlar müxtəlif ərazilərə səpələndiyindən, burada da ermənilər ola bilərdi. Amma dövlətləri yox idi. "Dənizdən-dənizə Böyük Ermənistan" isə, sadəcə, xülyadır..." Bəzi tarixçi və politoloqlar isə hesab edirlər ki, bu gün Paşinyanın və ermənilərin "Böyük Tiqran" adlandırdıqları I Tiqran isə, ümumiyyətlə, milliyyətcə hay deyil. O, Əhəmənilər sülaləsindən fars Artabanın oğludur. Ermənilər böyük saxtakarlıqlar edərək onu "Böyük Ermənistanın" müzəffər çarı kimi bütün dünyaya yalanla tanıtmağa çalışırlar.

Politoloq Nəzakət Məmmədova Paşinyanın Tiqranla bağlı açıqlamasından sonra yazılarından birində qeyd edir ki, "Tiqran" sözünün özü belə, ermənicə deyil, "Tiqr" (Dəclə) çayının adından götürülüb ki, bu da Midiya dilində "tiqris", yəni "ox kimi", "sürətli axın" deməkdir. "...Yəqin ki, nə Tiqran, nə də onun münəccimləri ağıllarına belə gətirməzdilər ki, əsrlər sonra saxtakar bir tayfanın törəmələri onu öz saxta tarixlərinə alət etməkdən çəkinməyəcəklər. 2020-ci ildə məzlum Tiqran saxta erməni propoqandasının aləti olmaqla Bavariyada xatırlanacaq, özü də ermənilərin ulu babası qismində.

"Tarixin atası" Herodot indiki Qafqazın ərazisini nəzərdə tutaraq yazırdı ki, "Hərbi müttəfiq olan farslar və midiyalılardan başqa, burada hökmranlıq etmək iqtidarında olan üçüncü bir dövlət yox idi". Strabon isə burada yaşayan iyirmi altı tayfanın adını çəkir ki, onların sırasında ermənilərə rast gəlinmir.

Yəqin ki, Herodot və Strabon tarixin və coğrafiyanın bu dərəcədə saxtalaşdırılmasını bilsəydilər, qəbirlərində fırlanardılar. Roma imperiyası guya ermənilərin imperiyası olan Great Armenia ilə "döyüşdüyünü" bilsəydi, barbarların hücumunu gözləmədən süqut edərdi.

Diplomat, tarixçi İlham Əliyev Bavariyanın paytaxtında dünyanın ən saxta ölkəsinin hələ də populizm canından çıxmayan jurnalist Baş nazirinə təkzibolunmaz faktlarla tarix dərsi keçdi. İlham Əliyev haqlı olaraq qeyd etdi ki, "Tarixi nöqteyi-nəzərdən, 1805-ci ildə Qarabağ xanı İbrahim xan Rusiya imperiyasının generalı Sisianovla saziş imzalayır. Bu sazişə əsasən, Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeçiliyinə keçir. Kürəkçay adlandırılan həmin sazişdə Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış digər müqavilələr - Gülüstan və Türkmənçay müqavilələrinə əsasən, Azərbaycanın qalan hissələri Rusiya imperiyasının tərkibinə keçir. Dağıstan, Gürcüstan və Ermənistan da həmçinin. Beləliklə, bu, məsələnin tarixi tərəfidir. Daha sonra Rusiya imperiyasının süquta uğradığı, Gürcüstan və Azərbaycan demokratik respublikaları yaradıldığı zamanlarda Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə verdiyi ilk fərmanlardan biri Yerevanın Azərbaycandan Ermənistana verilməsi və onun Ermənistanın paytaxtı elan edilməsi ilə bağlı idi. Bu da, həmçinin, tarixi faktdır. Əgər siz kiməsə nəsə verirsinizsə, bu, o deməkdir ki, həmin o nə isə sizə məxsus olub!" Söz alan Paşinyan isə görək nə deyir: "Erməni kralı Böyük Tiqran romalı hərbi lider Pompeylə danışıqlar aparan zaman bütün Cənubi Qafqazda və bütün dünyada Azərbaycan adlı ölkə olmayıb. Düşünürəm ki, çox uzağa getmək o qədər də düzgün deyil. Çünki mən daha uzağa gedə bilərdim və misal üçün, eramızdan əvvəlki 400-cü ildən başlaya bilərdim. Lakin mən bunu etməyəcəyəm. Çünki bunun düzgün yol olduğunu düşünmürəm".

Doğrudur, düzgün yol deyil, çünki debatın əvvəlində opponentinin tarix bilgisini görən və uduzacağını jurnalist intuisiyası ilə hiss edən Paşinyan söhbətin məcrasını dəyişməyə çalışır, amma yenə özünü dolaşığa salır və növbəti dəfə nokauta düşür. Niyə?! Qayıdaq, Paşinyanın xatırladığı eramızdan əvvəlki 400-cü ilə. Bu coğrafiyada nə baş verirdi?!

Qədim tarixə malik ölkə kimi görünmək üçün ermənilər hər vəchlə özünü qədim dövlətlərə, o cümlədən, Roma imperiyasına calaşdırmaq istəsələr də, bir çox tarixi mənbələr, o cümlədən, Roma tarixçilərinin, məsələn, Korneliy Tatsitin əsərlərində qeyd edilir ki, "Bu xalq istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır. Bunlar daim romalılara nifrətdən, parfiyalılara isə hikkədən az qala partlayırlar". Erməni tarixçiləri isə belə cəfəng fikirlər səsləndirirlər ki, guya "Böyük Ermənistanın" nümayəndələri Qədim Roma Senatında romalılarla yanaşı əyləşmək hüququna malik yeganə əcnəbi xalq olublar. Hətta Romada Kolizeyin yaxınlığındakı qədim dünyanın xəritəsində "Armenia" Romanın yaxın müttəfiqi kimi göstərilir. Lakin həmin Armenianın indiki ermənilərlə, yəni haylarla heç bir etnik-dövlətçilik bağlılığı yoxdur. Bu ona bənzəyir ki, Misirdə mumiyası ehramlardan tapılmış fironları, məsələn, Tutanxamonu kopt xalqının nümayəndəsi kimi təqdim edəsən..."

N.Məmmədova qeyd edir ki, digər bir ilkin orta əsr erməni tarixçisi Moisey Xorenasin yazır: "Biz haylar kiçik, azsaylı, zəif və başqalarının hakimiyyəti altında yaşayan xalqıq". "Paşinyan isə bir çox xəstə təxəyyüllü erməni kimi utanmazcasına iddia edir ki, Qafqazda qədim dövrlərdə guya azərbaycanlılar olmayıb, yalnız ermənilər və gürcülər olub. Halbuki, XIX əsr məşhur tədqiqatçısı İ.Şopen yazır ki, "Ermənilər Ərməniyyənin qədim sakinləri deyillər, onlar Assuriyadan gəlmədirlər". Bu coğrafiyada azərbaycanlıların gəlmə olduğunu iddia edən Paşinyan guya gürcülərin və ermənilərin köklü xalq olduğunu deməklə öz savadsızlığını ortaya qoyub, növbəti dəfə Herodotu və Strabonu qəbirdə fırlanmağa məcbur etdi. Halbuki, onlar saxta tarix yaratmaqla gürcü tarixini də mənimsəməyə cəhd göstərirlər..." - deyə tanınmış politoloq qeyd edib.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Erməni ziyalıları və mediasının Paşinyanın üstünə "post-Münhen" yürüşünün səbəbləri...

## *Hatəm Cabbarlı: "Yalnız bu debatda deyil, onun Azərbaycana yönəlik bütün çıxışlarında tutarsızlıq və dağınıqlıq var"*

**Münhendə Dağlıq Qarabağla bağlı keçirilən debatlarda çıxış edən Ermənistan Baş naziri Nikol Paşinyanın rabitəsiz, yalan, təmkinsiz və tarixi əsasları olmayan nitqi erməniləri də hiddətləndirib. Öz ölkəsinin sakinləri belə Azərbaycan Prezidenti İlham Əliyevin tarixi çıxışı qarşısında aciz qalan Paşinyanı təhqir etməyə başlayıb.**



Ölkə ictimaiyyəti də onun danışığından sonra özündən çıxıb.

"Nikol Paşinyan, əgər evdə oturanlar sənə desələr ki, çıxışın möhtəşəm idi, onlara inanma. Reallıqdan uzaqlaşma və bil ki sən sıfırsan, heçnəsən!" Bu sözləri isə populyar erməni müğənni, şairə Anna Honver deyib. O, utancından yerin dibinə girməyə hazır olduğunu, başının önə əyildiyini qeyd edib.

Baş naziri kəskin tənqid edənlərdən biri də yazıçı Anna Terkott-Astvatsaturyandır. O, özünün sosial şəbəkədəki səhifəsində erməni "lider"in məğlubiyyətini onun kütbeyinliyi ilə bağlayıb. Onun sözlərinə görə, məhz Paşinyanın tarix haqqında məlumatsızlığı, siyasi diskussiyaya hazır olmaması həm onu, həm də bütün Ermənistanı gülünc vəziyyətə qoyub. Yazıçı qeyd edib ki, Paşinyan bütün parametrlərə görə Azərbaycan Prezidenti İlham Əliyevə məğlub olub. "Ar oslun".

Erməni mediası Nikol Paşinyanın səriştəsizliyi və qeyri-peşəkarlığı nəticəsində Azərbaycan liderindən ağır zərbələr aldığını şərh etməkdədir.

Erməni KİV-ində yer alan sitatlardan bəzilərini diqqətinizə çatdırırıq:

"Münhendə hər şey açıq-aydın bəlli oldu: oyun qaydalarını kim diktə edirdi, kim isə ağ bayraq qaldırmışdı".

"Paşinyan özünə yer tapa bilmirdi. Çıxışı boyu həraratlə əl-qolunu oynadırdı. İzləyicilər üçün gülməli personaja çevrilmişdi".

"Paşinyan çox sönük və özünü itirmiş görünürdü. Sanki dərsini oxumamış tələbədir. İlham Əliyevdən qorxduğu açıq-aydın görünürdü".

"Erməni xalqını yetəri savada və psixoloji dayanıqlığa malik olmayan insanın təmsil etməsi üzücüdür".

Paşinyana öz ölkəsinin ictimai rəyində edilən sərt hücumların səbəbi nə ilə bağlıdır?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, debatda diqqətçəkən vacib məqamlardan biri Paşinyanın həmin formatda əsassız iddialarla çıxış etməsi oldu: "Prezident həmin iddiaları dərhal və yerindəcə tarixi faktlarla altüst etdi. Əslində, Nikol Paşinyanın siyasi portretinə diqqət etdikdə onun Ermənistanın daxilində yaxşı natiq olduğu üzə çıxır. Amma beynəlxalq siyasətdə isə Paşinyan özünü həvəskar kimi aparır. Onun daxili siyasətdə olan arqumentləri 20 illik Köçəryan və Sarkisyan hakimiyyətinin qanunsuzluqları üzərində qurulub. Münhendə isə siyasi mühit çox fərqli idi. Paşinyanın arqumentləri olduqca zəif idi və tarixin qaranlıqlarında ilişib qalmışdı. Paşinyan debat ərzində yanlış bir bilgi verdi . Sonra nə qədər düzəliş etməyə cəhd etsə də, bu, onda alınmadı. Söhbət Şaumyan rayonunu Dağlıq Qarabağa aid etməkdən gedir. Digər diqqətçəkən məqam isə Paşinyanın eramızdan əvvələ aid tarixi faktlarla sitat gətirməsi oldu. Təhlükəsizliklə bağlı məsələnin müzakirə olunduğu paneldə tarixə edilən uğursuz cəhd tamamilə diletantlıqdan xəbər verirdi. Mütəllibova istinad etdi. Sonra məlum oldu ki, Mütəllibovun belə bir bəyanatı olmayıb. Belə əsası olmayan faktlara söykənərək, beynəlxalq tribunadan nələrisə söyləmək zəiflik əlaməti sayılır".

Ekspertin sözlərinə görə, Münhen konfransından sonra Ermənistanın daxilində Paşinyanın davranışı birmənalı qarşılanmadı: "Demək olar ki, Ermənistanın bütün ictimai rəyi Paşinyanın əleyhinə danışdı. Bura həm onun siyasi opponentlərini, həm də ziyalıları aid edə bilərik. Artıq görünür ki, ermənilər inqilabın eyforiyasından çıxıb və Paşinyanın əsl kimliyini tanımağa başlayıblar. Paşinyan üçün uğursuz olan bu çıxışla bağlı cəmiyyətdən müxtəlif təkliflər də eşidilir. Məsələn, deyilir ki, yaxşı olardı uğursuz və əsaslandırılmamış tarixi faktlardansa, Paşinyan Sumqayıt hadisələrindən danışardı. Yalnız bu debatda deyil, onun Azərbaycana yönəlik bütün çıxışlarında tutarsızlıq və dağınıqlıq var. Ermənistan daxilindəki ictimai rəy bu səbəbdən Paşinyanı qəbul etmir".

***Məhəmmədəli QƏRİBLİ***

# Erməni liderlər danışıqların bütün əvvəlki mərhələlərində prosesdən hansı bəhanələrlə yayınıblar...

## *Məhəmməd Əsədullazadə: "Erməni dövlət başçıları, ənənəvi olaraq, bu metoddan istifadə edərək danışıqları uzadırlar"*

**Ermənistan rəhbərləri hər zaman danışıqların ən həlledici məqamında söhbəti davam etdirməmək üçün müəyyən bəhanə tapıblar. Bu barədə Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə çıxışı zamanı deyib.**



Dövlət başçısı bununla bağlı bir sıra məqamlara toxunub: "Bilirsiniz, mənim Ermənistan rəhbərləri ilə danışıqlar təcrübəmdən çıxış edərək, deyə bilərəm ki, mənim cənab Paşinyanın iki sələfi ilə də danışıqları aparmaq imkanım olub. Hər zaman danışıqların ən həlledici məqamında söhbəti davam etdirməmək üçün müəyyən bəhanə tapıblar. Digər sözlə desək, onların hamısı status-kvonun dəyişməz olaraq qalmasını istəyiblər. Lakin elə onların da hamısı buna fərqli tərzdə nail olmağa çalışıblar. İndi isə Baş nazir Paşinyanın öz təklifi haqqında danışanda və söyləyəndə ki, həll variantı Azərbaycan xalqı tərəfindən qəbul edilən olmalıdır, mən buna cavab vermişəm və Azərbaycan xalqı üçün nəyin qəbul edilən olduğunu söyləmişəm. Erməni təcavüzündən əziyyət çəkmiş Azərbaycan vətəndaşları öz evlərinə qayıtmaq istəyirlər. Bu, onların fundamental hüququdur. Onlar Ermənistan rəhbərliyinə görə demək olar ki, otuz ildir bu hüquqdan məhrum ediliblər".

Həqiqətən də dəfələrlə Ermənistan prezidentləri danışıqların həlledici mərhələsində bir bəhanə uyduraraq prosesi yarımçıq saxlayıblar. Məsələn, 2006-cı ilin fevralında Fransada danışıqlar çox həlledici mərhələyə qədəm qoymuşdu. Anvaq fevralın 11-də prezidentlərin Rambuye qəsrindəki sözügedən görüşü zamanı Ermənistanın sabiq prezidenti Robert Köçəryan Ermənistanın keçmiş müdafiə naziri Serj Sarkisyanın yaxın qohumunun vəfat etməsini bəhanə gətirərək görüşü yarımçıq tərk etdi. 2008-ci ildə Serj Sarkisyan Ermənistan prezidenti oldu. O da əvvəlki prezident kimi görüşü yarımçıq tərk etmək taktikasına üstünlük verdi. Belə ki, 2011-ci ildə Kazanda danışıqlar həlledici mərhələyə daxil olarkən Sarkisyan bənzər addım ataraq prosesdən yayındı. İndi də Paşinyan onların yolu ilə gedir.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, erməni dövlət başçıları, ənənəvi olaraq, bu metoddan istifadə edərək danışıqları uzadırlar: "Bu nə birincidir, nə də axırıncı. Ermənistanın apardığı işğalçı siyasətə son qoymaq üçün Azərbaycan artıq böyük üstünlüyə malikdir. Artıq danışıqlar prosesini dəyişmək üçün yeni proqressiv yanaşma ortaya qoya bilir.

*"...danışıqların inkişaf etdirilməsi barədə müəyyən razılıqlar növbəti dəfə Paşinyan tərəfindən pozulur"*

Ancaq Ermənistan rəhbərliyi daim bütün əlverişli şəraitdə prosesdən uzaqlaşır və manipulyasiya edir. Məhz dövlət başçısı İlham Əliyevin qeyd etdikləri buna əsaslanır. Cenevrədə tərəflərin danışıqların inkişaf etdirilməsi barədə müəyyən razılıqları növbəti dəfə Paşinyan tərəfindən pozulur. Məhz Münhendə keçirilən dialoqda biz bunu Paşinyanın necə etdiyinin şahidi olduq.

Münaqişənin nizamlanması barədə dialoq aparmaq əvəzinə, yalançı tarixə ekskurs edir. Düzdür, bu yalanları ifşa edildi. Hesab edirəm ki, rəsmi Bakı kifayət qədər bu məsələnin qarşısını alacaq və Ermənistanın bu mahiyyətini güc yolu ilə dəyişəcək. Yoxsa, İrəvanın atdığı addımlar vaxtı uzatmaqdan başqa bir şey deyil. Cənab Prezident də artıq bunun mesajını verdi. Bu o deməkdir ki, artıq Azərbaycan Ermənistanın məlum yanaşmasına ciddi cavab verəcək. Hesab edirəm ki, Paşinyanın apardığı siyasət qorxaqlıqdır və o, daxili faktordan çəkinərək praqmatik addımlar ata bilmir. Ona görə də status-kvonu qoruyur. Buna Azərbaycan imkan tanımayacaq və mütləq situasiyanı dəyişəcək".

***Vidadi ORDAHALLI***

"Azərbaycan və dünya ictimaiyyəti Münhen Təhlükəsizlik Konfransı çərçivəsində bir daha Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanı, necə deyərlər, daşdan keçən tutarlı faktlarla çıxılmaz vəziyyətə və aciz duruma salınmasının şahidi oldu".



# Münhendə Paşinyana belə zərbə vuruldu...

## *Vüqar Rəhimzadə: "Prezident İlham Əliyev Nikol Paşinyana tarix və hüquq dərsi keçdi"*

Bu sözləri KİV-ə açıqlamasında Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

"İki sahil" qəzetinin baş redaktoru bildirib ki, Prezident İlham Əliyev Nikol Paşinyana tarix dərsi keçdi: "Müzakirələrdən aydın göründü ki, Dağlıq Qarabağın tarixi, müxtəlif dövrlərdə bu ərazilərin kimə mənsubluğu ilə bağlı tarixi həqiqətləri əks etdirən faktlar Ermənistanın işğalçı olduğunu açıq-aşkar bir daha təstiq etdi. Bu mənada Prezident İlham Əliyevin Dağlıq Qarabağın Azərbaycana məxsus olması ilə bağlı söylədiyi,təkzibolunmayan faktlara əsaslanan tarixi həqiqətlər qarşısında Paşinyanın əsl erməni xislətinə xas olan eramızdan əvvəlki dövrə mücərrəd və dolayı ekskursu və digər sayıqlamaları beynəlxalq auditoriyanı və dünya ictimaiyyətini çaşdırmaq cəhdindən başqa bir şey deyildi. Əgər Paşinyan həqiqətən də Dağlıq Qarabağın ermənilərə məxsus olduğunu təsdiq edən hər hansı bir fakta, sənədə malik olsaydı, mütləq şəkildə bunu açıqlayardı. Açıq-aydın göründü ki, Nikol Paşinyan Prezident İlham Əliyev tərəfindən səsləndirilən tarixi həqiqətlər, təqdim etdiyi tutarlı faktlar və dəlillər qarşısında aciz durumda qaldı".

"Prezident İlham Əliyevin Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olması və münaqişənin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna biləcəyinə dair təqdim etdiyi beynəlxalq norma və prinsiplərə əsaslanan hüquqi bazanın qarşısında Paşinyan tutarlı heç bir arqument gətirə bilmədi" deyən Vüqar Rəhimzadə vurğulayıb ki, Prezident İlham Əliyev XIX əsrin əvvəlindən başlayaraq 200 il ərzində imzalanmış çoxsaylı saziş və müqavilələri xronoloji ardıcıllıqla sadaladığı halda, Paşinyan bir dənə də olsun hüquqi cəhətdən əsaslandırılmış fakt ortaya qoya bilmədi. Bununla da Prezident İlham Əliyev Dağlıq Qarabağın həm hüquqi, həm dəcoğrafi baxımdan Azərbaycana məxsus olduğunubir daha bütün dünyaya nümayiş etdirdi.

Vüqar Rəhimzadə əlavə edib ki, siyasi cəhətdən savadsız və korafəhm fiqur olduğunu dəfələrlə nümayiş etdirmiş Paşinyan bu debatın gedişində də özü-özünü ifşa və təkzib etdi: "Bir tərəfdən Dağlıq Qarabağın münaqişə tərəfi olduğunu, özünün silahlı qüvvələrə malik olduğunu deyən Ermənistanın baş naziri, digər tərəfdən də öz oğlu da daxil olmaqla Ermənistan vətəndaşlarının Dağlıq Qarabağda hərbi xidmət keçdiyini etiraf etməli oldu. Bununla da Paşinyan bu fikri ilə əyani şəkildə təsdiq etdi ki, "Dağlıq Qarabağ ordusu" deyilən mif heç bir real fakta əsaslanmır və Azərbaycan ərazilərini işğal edən də, bu gün ərazilərimizi işğal altında saxlayan da Ermənistan silahlı qüvvələridir. Düşmən ölkənin rəhbəri dolayı yolla etiraf etməli oldu ki, işğal olunmuş Azərbaycan ərazilərində Ermənistanın silahlı qüvvələri var, Ermənistan vətəndaşları hərbi xidmətlərini burada keçirlər, "Dağlıq Qarabağ respublikası" adlanan qondarma qurum Ermənistan büdcəsindən maliyyələşdirilir".

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycan Prezidenti Ermənistan rəhbərinə növbəti dəfə tarix və hüquq dərsi keçdi: "Dünya birliyi Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsi, eyni zamanda, digər beynəlxalq təşkilatların bəyanatları, qəbul etdikləri sənədlər bunu deməyə əsas verir. Azərbaycan Prezidenti Ermənistan rəhbərliyi ilə hər müzakirədə əsaslı tarixi faktlarla çıxış edərək, haqlı, ədalətli mövqe ortaya qoyur, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalı olduğunu real faktlara və dəlillərə əsaslanmaqla beynəlxalq ictimaiyyətə sübut edir. Paşinyan isə əksinə, tarixi faklar və həqiqətlər qarşısında rəzil vəziyyətə düşür, əzilir-büzülür, susur, bəzən də ağ yalanlarla sudan quru çıxmağa çalışır. Lakin onun yalana və böhtana əsaslanan bütün cəhdləri uğursuz alınır. Çünki erməni baş nazirin fikirləri heç vaxt heç bir fakta söykənmir."

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Ermənistan tərəfinin nə üçün çox vaxt danışıqlar prosesindən imtina etməsi və bunun üçün müxtəlif bəhanələr gətirməsi Münxen müzakirələri zamanı bir daha özünü göstərdi: "Möhtərəm Prezidentimizin hər sözü, cümləsi Paşinyana endirilən ağır zərbələr idi. Dövlət başçımız Ermənistanın ölkəmizə qarşı törətdiyi soyqırımları, Xocalı faciəsini, digər işğalçılıq və vandalizm faktlarını bir-bir tərs şillə kimi Paşinyanın üzünə vurdu. Erməni baş nazir isə yalnız Azərbaycanın keçmiş prezidenti Ayaz Mütəllibovun fikirlərini təhrif edilmiş formada dilə gətirərək vəziyyətdən çıxmağa çalışdı.

Müzakirələr zamanı ən çox yadda qalan məqamlardan biri də Paşinyanın böyük çaşqınlıq içində "Çünki Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın ... yox üzr istəyirəm, Ermənistanın tərkib hissəsi olmasına qərar verdi" kimi gah nala, gah da mıxa vuran, bununla da özü də bilmədən həqiqətin aşkara çıxarılmasına kömək edən etirafı "Yalançının yaddaşı olmaz" məşhur Azərbaycan atalar məsəlinin nə qədər doğru olduğunu beynəlxalq aləmə bəyan etdi. Bu fakt bir daha belə bir məntiqi nəticəyə gəlməyə əsas verir ki, Ermənistanın baş naziri sanki Münxenə müzakirə aparmağa yox, beynəlxalq ictimaiyyət qarşısında biabır olmağa gəlmişdi və bunu zatən bacardı da."

"İki sahil" qəzetinin baş redaktoru söyləyib ki, fevralın 15-də Münxen Konfransında keçirilmiş müzakirələr zamanı Prezident İlham Əliyev əsl peşəkar, müdrik siyasəti ilə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu həm tarixi, həm beynəlxalq hüquq, həm də beynəlxalq birliyin mövqeyi kontekstində dünya ictimaiyyətinə çatdırdı. Ermənistanın baş naziri bu reallığa qarşı heç bir əks-arqument ortaya qoya bilmədi: "Beləliklə, Prezident İlham Əliyev təkzibolunmaz faktlar və dəlillərlə, dəmir məntiqlə Paşinyanın bütün əsassız və çürük ideallarını darmadağın etdi, onu çıxılmaz vəziyyətə və aciz duruma saldı, bütün yalanlarını faktlarla və məntiqlə ifşa etdi, ona indiyədək rastlaşmadığı tarix və hüquq dərsi keçdi. Beləliklə, Nikol Paşinyan növbəti dəfə tarixi həqiqətlər və beynəlxalq hüququn tələbləri qarşısında seytnot vəziyyətinə düşdü".




# İdlib Rusiya-Türkiyə münasibətlərini gərginləşdirə bilər

**Suriyanın İdlib bölgəsi ətrafında yaranmış vəziyyətə görə həlelik diplomatik danışıqlara üstünlük verən Ankara Rusiya ilə danışıqları davam etdirir, bununla yanaşı hərbi variantını da masada saxlayır.**

Baki-xeber.com xəbər verir ki, Əsəd rejimin İdlibdəki irəliləyişi Türkiyə və Rusiya arasında gərginliyi artırıb. Digər tərəfdən də bölgədə gərginliyi azaltmaq və problemi həll etmək üçün Ankara-Moskva xəttində diplomatik təmaslar davam edir.

Bu çərçivədə keçən həftə Rusiyadan bir heyət Ankarada səfərdə olub. Gərginliyin yüksəldiyi bir vaxtda təsadüf edən görüş nəticəsiz başa çatmışdı. Bu gün isə hərbi və diplomatlardan ibarət türk heyəti Moskvaya səfər edib. Təbii ki, müzakirələrin əsas mövzusu yenə də İdlib ətrafında yaranmış vəziyyət olacaq.

Türkiyə israrla Rusiyadan Əsəd rejiminin bölgədəki irəliləyişini dayandırmasını tələb edir. Bir neçə gün əvvəl isə Kreml Rusiya və Əsəd rejiminə qarşı hücumları dayandırmağa çağırıb. Rusiyanın Türkiyədəki səfiri isə Əsəd rejiminin bölgədəki hərəkətlərinə haqq qazandıraraq, heç kimin rejimi dayandıra bilməyəcəyini demişdi: "Suriya ordusu ərazilərinin hər bir hissəsini geri almağa qərar verdi. Təkrar edirəm, öz suveren ərazisini. Suriya ordusu öz torpaqlarında öz xalqı üçün mübarizə aparır".

Bütün bunlar danışıqların nə qədər gərgin olduğunu göstərir. Hələlik diplomatiyaya üstünlük verən Ankara, Rusiya ilə danışıqlardan konkret nəticə olmasa, hərbi variantı da masada saxlayır. Bu çərçivədə Türkiyə İdlibə hərbi qüvvə toplayır. Türk ordusu və Suriya Milli Ordusu hərəkətə keçmək üçün əmr gözləyir.

# Radikalların seçkisonrası mitinqinin iki uğursuz təzahürü - icazə verilmiş Lökbatandan imtina və qanuni araşdırmalara təzyiq göstərmək cəhdi...

## Məhərrəm Zülfüqarlı: "Qanunsuz aksiya keçirmək doğru deyil"

**Məlum olduğu kimi, "Müsavat", "ReAL" partiyaları, "D18 hərəkatı" və müstəqil namizədlərin bir qrupu paytaxt ərazisində mitinq keçirməsi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə (BŞİH) müraciət edib. BŞİH alternativ yer olaraq mitinqin 16 fevral 2020-ci il tarixdə, saat 15:00-dan 17:00-dək Qaradağ rayonu, Lökbatan qəsəbəsindəki 28 May küçəsi, "Neftçi" İdman Klubu İctimai Birliyinin Qaradağ təlim-idman bazasında keçirilməsini təklif edib.**




Radikallar isə onlar üçün ayrılan yerdə aksiya keçirməkdən imtina edərək fevralın 16-da MSK qarşısında əvvəlcədən rəsmi qaydada xəbərdar olunmalarına baxmayaraq, toplaşmağa cəhd ediblər. Cəhdin qarşısı polis əməkdaşları tərəfindən alınıb və onlar ərazidən kənarlaşdırılıblar. Bu zaman ciddi qanun pozuntusu qeydə alınmayıb, saxlanan və xəsarət alan olmayıb.

Burada radikalların seçkisonrası mitinqinin iki uğursuz təzahürü ortaya çıxır. Birincisi, icazə verilmiş Lökbatandan imtina edərək qanunsuz aksiya keçirməyə cəht edirlər. İkincisi, bəlli olduğu kimi, müəyyən pozuntularla bağlı bəzi dairələrdə seçkinin nəticələri ləğv edilib. Digərləri ilə bağlı da araşdırmalar gedir. Bütün bunları radikallar nəzərə almayaraq, qanuni araşdırmalara təzyiq göstərməyə cəhd edirlər.

Təəssüf ki, 4 seçki dairəsinin nəticəsinin Mərkəzi Seçki Komissiyası tərəfindən ləğv edilməsinə, bəzilərinin seçki dairələri üzrə müraciətlərin araşdırılması üçün müvafiq dairə seçki komissiyalarına göndərilməsinə baxmayaraq, bəzi qrupların nəticələri gözləmədən MSK qarşısında aksiya keçirmək cəhdi müəyyən pis niyyətlərə xidmət edir.

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, qanunsuz aksiya keçirmək doğru deyil: "Təbii ki, radikalların bu addımı doğru deyil. Aksiya üçün hara müəyyən olunubsa, ora getmək lazımdır. Bundan başqa, pozuntu qeydə alınan dairələrlə bağlı araşdırma gedir. İcazəsiz aksiyalar bu yöndə gedən araşdırmalara təzyiq xarakterli ola bilər.

*"İcazəsiz aksiyalar bu yöndə gedən araşdırmalara təzyiq xarakterli ola bilər"*

Hesab edirəm ki, bütün bunları nəzərə alıb icazəsiz aksiyalardan çəkinmək lazım idi. Burada bir məsələ də var. Məsələ ondadır ki, bəziləri deyirdi sosial şəbəkələrə baxırıq və bundan ləzzət alırıq. Sosial şəbəkələr bizi seçkilərin nəticələrinə baxmağa əsas verir. Hesab edirəm bu cür açıqlamalar olmamalı idi. Çünki sosial şəbəkə rəsmi sənəd deyil. Ona görə də elan olunmalıdır ki, rəsmi sənədlərə baxacayıq, sosial şəbəkələri nəzərdən keçirəcəyik".

**Vidadi ORDAHALLI**

# Paşinyanın Berlində Rəsulzadəni faşist Njde ilə müqayisə etməsi, əslində, Merkelin özünə təhqirdir

## Qasım Hacıyev: "Paşinyan bunu deməklə Məmməd Əmin Rəsulzadəni nəzərdə tutursa, bu tamamilə absurd fikirdir"

**Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Berlində səfərdə olan Ermənistanın baş naziri Nikol Paşinyan yenə də uğursuz müqayisələr aparıb və növbəti uydurmalarla çıxış edib.**




Belə ki, Paşinyan "Fridrix Ebert" fondunda Qaregin Njdenin abidəsinin qoyulması ilə bağlı Ermənistanın mövqeyini bildirib. Paşinyan qeyd edib ki, guya Ermənistanda Qaregin Njdenin xatirəsini 1918-ci ilermәni-türk müharibəsi zamanı ermənilərə qarşı qırğının və erməni dövlətinin məhv edilməsinin qarşısını alan bir qəhrəman kimi ehtiramla yad edirlər. Daha sonra o, uğursuz müqayisə apararaq qeyd edib ki, İrəvanda Njdenin abidəsi ilə yanaşı, erməni-türk müharibəsinin digər iştirakçısı Marşal Baqramyanın da abidəsi var. Onların yolları bir-birindən ayrılsa da, ermənilər onları erməni tarixindəki rollarına görə dəyərləndirirlər. Aydın görünür ki, Paşinyan ya tarixi bilmir, ya da uydurmalar ortaya atır. Çünki Baqramyan İkinci Dünya müharibəsində faşistlərə qarşı vuruşub. Ən nəhayət, Paşinyan Azərbaycanla bağlı növbəti uydurma fikirlərlə çıxış edib. Bildirib ki, guya azərbaycanlılar Njde məsələsində teztez möhtəkirlik etməyi sevirlər. Əslində bu kontekstdə Üçüncü Reyxin nasist ordusunun Rəsulzadə soyadında komandiri olub. Hazırda Azərbaycanın paytaxtı Bakıda onun adını daşıyan küçə var. Əvvəla, o vaxt alman ordusunda Azərbaycan əsilli Rəsulzadə soyadını daşıyan komandir olmayıb. Olsaydı, bunu gizlətmək mümkün olmazdı. Paşinyan bununla Məmməd Əmin Rəsulzadəni nəzərdə tutursa, bunun özü tamamilə absurd yanaşmadır. Ona görə ki, M. Rəsulzadə alman ordusunda ümumiyyətlə hər hansı bir formada iştirak etməyib. Bu baxımdan Paşinyanın Rəsulzadəni faşist Njde ilə müqayisə etməsi əslində Merkelin özünə təhqirdi.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyevin sözlərinə görə səslənən fikirlər tamamilə uydurmadır: "Küçə inqilabı dalğasında hakimiyyətə gələn Paşinyan avantürist açıqlamalarla çıxış edir. Bu onu göstərir ki, o həm də yüngülxasiyyət adamdır. Paşinyanın yüngülxasiyyət adam olması Ermənistan cəmiyyəti özü də görür və bunun bəlasını çəkir. O cümlədən biz də indiyədək onun hansısa ciddi danışıqlarına rast gəlməmişik. Nəinki dövlət başçısı, adi bir məmur da o səviyyədə yalan uydurmalarla çıxış etmir. Ancaq Paşinyan bütün sərhədləri aşzaraq ağlagəlməz uydurmalarla çıxış edir. Qeyd edim ki, o vaxt ümumiyyətlə alman ordusunda Rəsulzadə soyadında komandir olmayıb. Çox güman ki, o bununla Məmməd Əmin Rəsulzadəni nəzərdə tutur. Ancaq M.Rəsulzadə alman ordusunda xidmət etməyib. O, Almaniyada mühacirətdə olub. Eyni zamanda, onun Almaniyanın dövlət rəhbərləri ilə söhbətləri də olub. Ancaq o, yüksək aristokrat səviyyədə öz ləyaqətini gözləyərək SSRİ tərkibindən türk dövlətlərinin, o cümlədən Azərbaycanın çıxarılması uğrunda mübarizə aparıb. M.Ə.Rəsulzadə heç vaxt alman ordusunda xidmət etməyib və ümumiyyətlə orduda təmsil olunmayıb. O baxımdan Paşinyanın səsləndirdiyi fikirlərin heç biri ona aid deyil. M.Ə.Rəsulzadənin həyat və fəaliyyəti kifayət qədər araşdırılıb. Ona görə də Paşinyan bunu deməklə M.Ə.Rəsulzadəni nəzərdə tutursa, bu tamamilə absurd fikirdir. Əslində, ermənilər Azərbaycana yönəlik elə yalanlar uydururlar ki, artıq biz buna təəccüblənmirik. O baxımdan Paşinyanın məlum sərsəm açıqlaması da bunun tərkib hissəsidir".

*"O vaxt, ümumiyyətlə, alman ordusunda Rəsulzadə soyadında komandir olmayıb"*

**Vidadi ORDAHALLI**

# Azərbaycanda dollara tələbat bir ayda düz üç dəfə azaldı - valyuta bazarında yeni şok...

**Dünya iqtisadiyyatında qeyri-müəyyən vəziyyətin hökm sürdüyü bir vaxtda maliyyə bazarlarında proseslərin hansı istiqamətdə cərəyan edəcəyi xüsusi maraq doğurur. Özü də o fonda ki, cari il ərzində ABŞ öz valyutasını ucuzlaşdırmağı düşünür. Düzdür, ABŞ-ın Federal Ehtiyat Sistemi son iclasında uçot dərəcəsini sabit saxlayıb.**

Qurum uçot dərəcəsini 1,5-1,75% səviyyəsində saxlayıb.

Amma ABŞ prezidenti Donald Tramp, əvvəlki kimi, Federal Ehtiyat Sisteminin uçot dərəcəsini azaltmasını istəyir. Tramp Avropa ölkələri ilə rəqabətə davamlılığı artırmaq üçün faizin endirilməsini zəruri sayır. Xatırladaq ki, ötən il Federal Ehtiyat Sistemi uçot dərəcəsini 3 dəfə endirib. Cari il ərzində qurumun, ən azından, iki dəfə də uçot dərəcəsini endirməsi gözlənir. Bunun nəticəsində dolların digər valyutalar, o cümlədən manat qarşısında məzənnə itkisinə məruz qalması qaçılmaz sayılır. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda son dövrlərdə dollara tələbin kəskin şəkildə azalması müşahidə olunur.

Belə ki, Dövlət Neft Fondu tərəfindən 2020-ci ilin yanvar ayı ərzində 300,2 milyon dollar məbləğində vəsait satılıb. Neft Fondu tərəfindən 2019-cu ilin dekabr ayı ərzində isə 886,35 milyon dollar məbləğində vəsait satılıb. Beləliklə, yanvar ayında dekabr ayı ilə müqayisədə valyuta satışı 3 dəfəyə yaxın azalıb. Qeyd edək ki, Neft Fondu tərəfindən 2019-cu ilin yanvar ayı ərzində isə 634,9 milyon dollar satılıb. İndi maraq doğuran məsələ dollara tələbin nədən belə kəskin şəkildə azalmasıdır.



Ekspertlər hesab edir ki, son dövrlər dollara tələbin aşağı düşməsi ilk növbədə idxalın azalması və qlobal bazarlarda baş verən hadisələrlə əlaqəlidir. Məhz bu səbəbdən Dövlət Neft Fondunun valyuta satışı ilə bağlı dekabr və yanvarda keçirilən hərracları arasında ciddi fərq var. Dollara tələbin azalmasının digər səbəbi yanvar ayında Çində koronavirus epidemiyasının yayılması ilə də əlaqələndirilir. Çünki Azərbaycanda idxalın müəyyən hissəsi Çinin payına düşür. Hazırda Çindən karqo və sərnişin təyyarələrinin ölkəyə uçuşları dayandırılıb. Bu fonda epidemiya idxalda tələbin azalmasına ciddi təsir göstərib. Digər tərəfdən, Azərbaycan idxal etdiyi bəzi məhsulları yerli istehsalla əvəzləyib. Bu da dollara tələbi azaldır. Söhbət burada ilk növbədə qida sektorundan gedir. Azərbaycan qida üzrə idxalı əhəmiyyətli dərəcədə azaldıb. Bu da dollara tələbi aşağı salır. Dollara tələbin azalması isə manatın məzənnəsinə bahalaşma təzyiqi yaradır. Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Elşad Məmmədov dollara tələbin azalması ilə bağlı qeyd edir ki, bunun iki səbəbi ola bilər: "Birinci səbəb odur ki, ölkədə sərt pul-kredit siyasəti davam etdirilir və pul kütləsi, yəni manat kütləsi azdır. Manat kütləsinin az olması da dollara tələbatı azaldır. İkinci səbəb budur ki, pul kütləsi düzgün idarə olunduğu halda real sektorda investisiyalar artırsa, ölkədən valyuta, kapital qaçışı azalır və idxala olan tələbat da azalır. Burada daha çox birinci səbəb göstərilə bilər, yəni pul kütləsinin yenə də sıxılması. Valyutaya tələbatın azalması yaxşı haldır, amma ikinci səbəbdən olsa idi, daha məqbul olardı. Çünki pul kütləsinin sıxılması vasitəsilə dollara tələbatın azalması dolların bahalaşmamasını şərtləndirsə də, iqtisadiyyatın dayanıqlı inkişafı mümkün deyil. Pul kütləsinin sıxılması bütövlükdə işgüzar fəallığın, investisiyaların azalmasına səbəb olur. Bu da yolverilməzdir".

Onun fikrincə, valyuta satışının azalması tam müsbət hal kimi dəyərləndirilə bilməz: "Bu, o vaxt tam müsbət hal olardı ki, iqtisadiyyatda investisiyalar artsın, pul kütləsi artsın, kreditləşmə yumşaq şərtlərlə çoxalsın. Bu halda dollara tələbat artmasa və yaxud azalsa, bunu müsbət hesab etmək olar. Dollara tələbatın azalması şərtilə investisiyaların artımına nail olunsa, onda bu, tam müsbət hal olar". Hələlik isə hesab edilir ki, qarşıdakı dövr ərzində dollara tələbin azalması davam edəcək. Burada rol oynayan məqamlardan biri həm də odur ki, Mərkəzi Bankın depozit hərracları manat bazasını qısamüddətli olsa da azaldır və bu da dövriyyədə pul kütləsinin həcminə təsir göstərir. Eləcə də banklardan vəsaitlərin nağdlaşdırılmasına tətbiq edilən limitlər nağd pul həcmini azaldır. Yəni, hətta büdcədən hesablara ayrılan və eləcə də özəl şirkətlərin özlərinin gəlirlərinin nağdlaşdırma ilə bağlı qadağaların tətbiq edilməsi manat kütləsinin həcmini aşağı salır. Nəticədə, dollara tələb yaradacaq və valyuta bazarında məzənnəni optimallaşdıracaq vəsaitlər bank hesablarında qalır və onlar bazara daxil olmur. Bu da dollar tələbini əhəmiyyətli dərəcədə aşağı salır.

**Ekspertlər vurğulayır ki, növbəti dövrdə milli valyutanın məzənnəsinin necə dəyişməsi birbaşa manat bazasının həcmindən asılı olacaq. Əgər manat bazasının məhdudlaşdırılması prosesi davam edərsə, o zaman dollara tələb aşağı olaraq qalacaq. Dollara tələbi sadəcə dövriyyədə manat kütləsinin artması yüksəldə bilər. Amma bu yüksəlmə ekspertlərin fikrincə yenə çox yüksək olmayacaq. Xüsusən də daxili istehsalın artması, qeyri-neft sektoru üzrə ixracın yüksəlməsi dollara tələbi azaltmaqda davam edir.**

***Ramil QULİYEV***

Bakı Xəbər

# Çinə 150 milyard dollar ziyan vuran koronavirus təhdidi Azərbaycan iqtisadiyyatından yan keçir...

**Dünya iqtisadiyyatına koronavirusun nə qədər təsir göstərəcəyi, beynəlxalq ticarətə necə təsir edəcəyi ətrafında kifayət qədər maraqlı proqnozlar verilməkdədir. Çinlə böyük ticarət əlaqəsinə malik Azərbaycan tərəfindən də baş verənlər diqqətlə izlənir.**

Hesablamalar göstərir ki, Azərbaycan Çindən ildə 1,4 milyard dollarlıq məhsul idxal edir. Amma koronavirus məsələsi artıq idxalın həcminə təsir edir.

Eyni zamanda o da məlumdur ki, son dövrlərdə Azərbaycandan Çinə müxtəlif məmulatların, o cümlədən şərabın ixracı xeyli artmışdı. Lakin yenə koronavirus bu prosesə təsir edir. Hesab edilir ki, koronavirus təhdidi genişlənməkdə davam edərsə, bunun Çinlə ticarət əlaqəmizə ciddi təsirləri olacaq. Amma bu problem təkcə Azərbaycan yox, Çinlə ticarət əlaqəsinə malik bütün ölkələr üçün keçərlidir. Hazırda müşahidə olunan hal koronavirusun Çin iqtisadiyyatını çökdürməsidir. Belə ki, Çində koronavirusun yeni ştammının yayılması artıq ölkə iqtisadiyyatına öz təsirini göstərməyə başlayıb. Hesablamalara görə, 2020-ci ilin birinci rübündə dünya iqtisadiyyatında ikinci yerdə qərarlaşan Çinin itkisi, demək olar ki, 1trilyon yuan və ya 143.1 milyard dollar təşkil edəcək. "Tayhe" analitik mərkəzinin tədqiqatçısı Cjan Çzyajuyun sözlərinə görə, hazırda iaşə sektoru, turizm və pərakəndə satış sahələri ziyana işləyir:"Ölkə rəhbərliyi davamlı olaraq epidemiyanın iqtisadiyyata təsirinin müvəqqəti və qısamüddətli olduğunu bəyan edir, virusun qarşısı alındıqdan sonra həm istehlakçı tələbatın artacağını, həm də iqtisadi inkişafın sürətlənəcəyini vəd edir. Lakin koronavirus xəstəliyi bir sıra müəssisələrin iflasına səbəb ola bilər". Ekspert bildirib ki, hökumət xəstəliyin yayılmasının qarşısını almaq üçün bir sıra ciddi və qabaqlayıcı tədbirlər gördü: "Məsələn, Hubey əyalətində yerləşən Vuhan şəhəri daxil olmaqla bir neçə şəhərdə Yeni il tətili üçün nəzərdə tutulan istirahət günlərinin sayını çoxaltdı, tədbirlərin keçirilməsinə qadağa qoydu və ölkə daxilindəki səyahətlərin sayını azaltmaq üçün təyyarə və qatar biletlərinin pulsuz olaraq geri qaytarılmasını təmin etdi. Bu tədbirlər epidemiyanın yayılmasının qarşısını almaq üçün həqiqətən zəruri idi, lakin bu hal, obyektiv olaraq, Çinin makro və mikroiqtisadiyyatına da əhəmiyyətli dərəcədə təsir göstərdi".

Cjan Çzyajuy bildirib ki, virusun ilk zərbəsinə iaşə və otel sənayesi tuş gəldi: "2019-cu ilin ilk rübündə onların gəliri 423.49 milyard yuan təşkil etmişdi və 2020-ci ilin birinci rübündə epidemiya bu iki sənayeyə ağır zərbə vuracaq. Qida xidməti sənayesinin bəzi iştirakçıları qida təchizatı xidmətləri sayəsində az gəlir əldə etsələr də, bu, dəryada damla deməkdir". O əlavə edib ki, turizm sənayesi əsas ziyan görən sahələrdən biridir: "2019-cu ilin birinci rübündə bu sahənin yalnız Yeni il tətillərində qazancı təxminən 500 milyard dollar təşkil etdiyi halda, bu il, demək olar ki, heç bir qazancları olmayıb. Şübhəsiz ki, bu vəziyyət pərakəndə satışa da təsir göstərib". Ekspertlərə görə, virusa qarşı qısa zaman ərzində effektiv mübarizə yolu aşkarlanmazsa, nəticə kifayət qədər acınacaqlı olacaq. Bu, hətta dünya iqtisadiyyatının tənəzzülə uğramasına təkan verə bilən faktor ola bilər. Çin və dünya iqtisadiyyatının tənəzzülə uğraması isə ilk növbədə enerji sektorunda qiymətlərin enməsinə səbəb olacaq. Bu bütün hasilatçılar, o cümlədən Azərbaycan üçün də təhdid yaradır. Düzdür, ölkə rəsmiləri hələlik ciddi problem görmür. Məsələn, iqtisadiyyat naziri Mikayıl Cabbarov bu xüsusda qeyd edir: "Çində yayılan koronavirusun Azərbaycan iqtisadiyyatı üçün hər hansı bir narahatlıq yaratması üçün əsas yoxdur". Onun sözlərinə görə, Azərbaycanda 2020-ci il üçün iqtisadi və büdcə proqnozları kifayət qədər mühafizəkar tərtib olunub:"Hər hansı bir proqnoz bildirmək çox tezdir. Bir çox ölkələrin, ilk növbədə, Asiya ölkələrinin iqtisadiyyatına müəyyən mənfi təsirləri görünür. Hesab edirəm ki, tələskənliyə yol verməməliyik. Dövlətin aidiyyəti qurumları ilə birgə vəziyyəti izləyib təhlil etməliyik. Bütün ssenarilər işlənilib".

Çinli ekspert Çi Han Lay isə bildirir ki, Çində koronavirusla bağlı baş verən iqtisadi proseslərin Azərbaycan iqtisadiyyatına bir o qədər də böyük təsiri olmayacaq:

"Heç şübhəsiz, Çin iqtisadiyyatına bu proses çox pis təsir edir. Əhali hazırda orada kilidlənib. Milyonlarla insan normal iqtisadi münasibətlərə qoşula bilmir. Öz fəaliyyətlərini davam etdirə bilmirlər. Məsələyə ticarət və turizm cəhətdən yanaşsaq Azərbaycan iqtisadiyyatına təsiri bir o qədər böyük deyil. İki ölkə arasındakı münasibətlərə yalnız iqtisadi və turizm cəhətdən yanaşa bilərik.

Mövcud münasibətlər bundan ibarətdir. Lakin bu, Azərbaycan üçün bir o qədər də əhəmiyyətli olmayacaq. Çünki Azərbaycan və Çin arasında qarşılıqlı ticarət və turizm əlaqələri o qədər də geniş deyil". Amma o da faktdır ki, Çin bütün dünya üçün əmtəə bazasıdır. Bu da o deməkdir ki, həmin virusa görə Azərbaycan da Çinlə olan ticarət dövriyyəsində müəyyən dəyişiklilər həyata keçirməyə məcbur qalacaq. İlk növbədə Çindən idxal olunan məhsulların həcmi azalacaq. Bu da iqtisadi dövriyyəmizə mənfi təsir göstərəcək. Lakin məsələnin digər tərəfi də var. Belə ki, bu virus nəticəsində Rusiya Çin məhsullarının idxalını dayandırıb. Əvəzində Rusiya bazarlarında Azərbaycan aqrar məhsullarına tələb artıb. Bu isə Çin tərəfdən olan itkilərin digər istiqamətlər üzrə kompensasiya olunduğunu göstərir.




***Tahir TAĞIYEV***

№ 29 (4160) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

18 FEVRAL 2020-ci il





**Qoç** - Hadisələrlə zəngin, bir qədər gərgin gündür. Problemlərə soyuqqanlı yanaşın. Belədə yaxşı əhvalınızı və hisslərinizin tarazlığını qoruya bilərsiniz. İşdə qarışıqlıq və müəmmalı məqamlardan uzaq durun.



**Buğa** - Yaşlı qohumlar heç xoş olmayan "sürpriz" bəxş etsələr də, situasiyaya kəskin reaksiya verməyin. Münaqişə və mübahisələr mövcud çətinlikləri daha da ağırlaşdıracaqlar. Romantik münasibətlər baxımından qüsursuz gündür.



**Əkizlər** - Xüsusi sarsıntılar, çətin sınaqlar və qayğıların olmayacağı gündür. Kiçik problemlər istisna deyil, amma onlar sizi yolunuzdan döndərməməlidir. Maneələrin əsl səbəbini araşdırın, yaşanan proseslərin kökünü anlamağa çalışın.



**Xərçəng** - Çətin gündür. Düşünülməmiş qərarlar verməyin, əməllərinizin nəticələrini əvvəlcədən təxminləməyə çalışın. Belə şəraitdə problemlərin sürəkli yaranmasına təəccüblənməyin.



**Şir** - Şəxsi münasibətlərdə eqoist və təşəxxüslü, laqeyd davransanız, problemlər istisna deyil. Ən yaxın insanlarınızla münasibətlərdə sərinlik yaratmayın. Soyuq tənqid, sərt sözlər, aqressivlik münasibətləri korlaya bilər.



**Qız** - Yeniliklər və dəyişikliklər zamanıdır. Dünyagörüşünüzü artırın, yaşlı həmkarların və iş yoldaşlarının təcrübəsindən yararlanın. Sizi yeni işlər və öhdəliklər gözləyir. Müxtəlif informasiyalardan, əldə edilmiş məlumatlardan yararlanın.



**Tərəzi** - Maliyyə məsələlərində həddən ziyadə ehtiyatlı olun. Xərcləri azaldın, bahalı səfər və ya əyləncədən imtina edin, bahalı istirahəti unudun. Yoxsa, böyük məbləğdə pul itirə bilərsiniz.



**Əqrəb** - Ailəlisinizsə, xərclər daha da artacaq. Yeni romantik macəra həyatınızdakı yeniliklər barədə ciddi düşünməyə vadar edir. Lakin əvvəllər boynunuza aldığınız öhdəliklər maraqlı ideyaları reallaşdırmağa mane ola bilər.



**Oxatan** - Çox mürəkkəb, qarışıq və narahat gündür. Peşəkar fəaliyyət müstəvisində situasiya əlverişlidir. Karyera pilləkəni ilə yüksələrək rəqibləriniz üzərində şəksiz qələbəyə nail ola bilərsiniz.



**Oğlaq** - Həmkarlar və rəhbərliklə fikir ayrılıqları istisna deyil. Mövqeyinizi, baxışlarınızı müdafiə edin. Yaxın ətrafınızdakı insanları da öz tərəfinizə çəkin. Günün ikinci yarısında romantik münasibətlər sürətlə inkişaf edlir.



**Dolça** - Qarışıq, narahat, xoşagəlməz sürprizlərsiz keçməyəcək bir gündür. Əmlakınızı sərt nəzarətdə saxlayın. Nəqliyyat vasitələri və önəmli saydığınız əşyalara diqqətlə yanaşın. Bahalı təmir tələb edəcək nasazlıq istisna deyil.



**Balıqlar** - Yaşlı qohumlarınızla münasibətlərdə sərinləşməyə yol verməyin. Köhnə problemlər həllini tələb edir, səhvlər gündəmə gəlir. Səbrli olun, belə situasiyada yalnız gözləmək qalır.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## 2070-ci ilə qədər heyvanların və bitkilərin 1/3-i məhv olacaq...

**Alimlər tərəfindən aparılan araşdırma zamanı məlum olub ki, iqlim dəyişikliyi nəticəsində 2070-ci ilə qədər yer kürəsindəki heyvanların və bitkilərin 1/3-i məhv olacaq.**

"Milli.Az" xəbər verir ki, elmi iş Arizona Universitetinin tədqiqatçıları tərəfindən aparılıb. Mütəxəssislər dünyanın 531 yerində 538 növün vəziyyətini araşdırıb. Araşdırma 44 faiz növün planetimizin bir neçə yerində artıq yoxa çıxdığını müəyyənləşdirməyə kömək edib. Nəzərə alsaq ki, planetimizdə qlobal istiləşmə davam edəcək, təbiət varlıqlarının yox olmaq təhlükəsi yüksələn faizlə inkişaf edəcək. İlkin tendensiya bioloji müxtəlifliyin zəngin olduğu tropik bölgələrdə nəzərə çarpacaq.



## Ağızdan gələn pis qoxu hansı xəstəliklərə işarədir?

**Ağızdan gələn pis iy insanın ətrafdakılardan utanmasına, kompleks yaşamasına səbəb olur.**

Bu problem çox vaxt gigiyena qaydalarına əməl olunmamaqdan, çürük dişlərdən qaynaqlansa da, bəzi xəstəliklərin olmasına da işarədir. Araşdırmalara görə, hər 4 nəfərdən birinin ağzından pis qoxu gəlir. Diş əti xəstəliklərini, siqaret çəkməyi də pis qoxunu yaradan səbəblər sırasında göstərirlər. Tütün diş əti xəstəliyini artırdığı üçün ağızdan gələn pis iyi daha da gücləndirir. Eləcə də, dişlərə yapışıq qalan qidanın parçalanması, dişlərin yaxşı təmizlənməməsi iyin yayılmasına gətirib çıxarır. Soğan və sarımsaq, onlardan hazırlanan qidalar da kəskin pis qoxunun yaranmasına səbəb olur. Tüpürcək ağız boşluğunu təmizləyir. Bu səbəbdən də ağız quruluğu kimi spesifik bir xəstəlik xoşagəlməz qoxunu yaradar. Ağızdan pis qoxu gəlməsin deyə, təbii ki, dişlər düzgün qaydada fırçalanmalı, ağız boşluğu gigiyenasına əməl olunmalıdır. Dişlər müntəzəm fırçalanmırsa, dişləri bakteriya təbəqəsi örtər. Bakteriya təbəqəsi diş ətlərinin iltihabına səbəb ola bilər. Eləcə də, bəzi dərman vasitələrinin qəbulu ağızdan xoşagəlməz iyin gəlməsilə nəticələnər. Ağız gigiyenasına əməl olunduqdan, siqaret də çəkilmədiyi halda, yenə də ağızdan pis qoxu gəlməyə davam edərsə, həkimə getmək məsləhət olunur. Belə ki, ağızdan gələn pis qoxu ciddi xəstəliklərin əlaməti olaraq meydana çıxa bilər. Ağızdan gələn kəskin, xoşagəlməz qoxu yuxarı tənəffüs yollarının yoluxmasına da işarədir. Kəskin və ya xroniki tonzillit, angina, difteriya və yolxucu mononukleoz kimi xəstəliklər zamanı ağızdan pis iy gələ bilər. Öskürək ilə üfunətli bəlğəmin ifraz olunması isə ağ ciyərlərin irinli iltihabının əlamətidir. Burunda yad cismin qalması da ağızdan gələn pis iyə səbəb olur. Bəzən uşaqlar bilmədən xırda detalları, kürəciklər, meyvə çəyirdəklərini və s. kimi kiçik qida hissəciklərini burunlarına salırlar və çıxara bilmirlər. Burunda ilişib qalan xırda əşyalar sonradan burun-nəfəs yollarından daha da dərinlərə gedir. Xoşagəlməz iylə yanaşı bu zaman insan asqırır və ağrı hiss edir. Ağızdan kəskin qoxunu yaradan digər amil həzm və biliar sistemin xəstəlikləridir. Həzmin pozulması, mədə şirəsinin turşuluğunun azalması, qaraciyər serrozu kimi mədə-bağırsaq xroniki xəstəlikləri zamanı ağız boşluğuna nə qədər qulluq olunsa da iy keçmir. Burunun selikli qişasının xroniki iltihabı, rinit olduqda da ağızdan pis qoxu gəlir. Ağızdan gələn pis qoxudan qurtulmaq üçün həkimlər yeməkdən sonra ağıza mixək atmaq və ya cəfəri çeynəmək, cirə, zirə, razyana kimi toxumların istər çayından, istərsə də üyüdülmüş tozundan istifadə etməyi məsləhət görürlər. Eləcə də, yeməkdən sonra adi su ilə ağız boşluğunu yaxalamaq nəfəsin tərəvətli qalmasına xidmət edər.

Ağzı su ilə yaxalamaq dişlərdə ilişib qalan yemək qırıntılarını təmizləyir. Yeməkdən əvvəl və sonra alma yemək də ağız qoxusunu aparır. Bəzi içkilər də nəfəsimizin təravətli qalmasına kömək edər. Məsələn, limon şirəsinin içinə təzə nanə yarpağı atıb, blenderdən keçirin. Alınan şirəni yeməkdən sonra yarım stəkan için. Onu da qeyd edək ki, ağızda pis qoxu yaranmasın deyə həkimlər ildə iki dəfə dişlərini yoxlatmaq, diş ətinin təmizliyi və sağlamlığı üçün stomatoloqa getməyi tövsiyə edirlər.

### Elan

Qulaməliyeva Mina Həsən qızının adına, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev N2980-81, mənzil 211 ünvanına "Universal" MTK tərəfindən verilmiş müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

## İnternet olmasa belə fasiləsiz əlaqə yaradan tətbiqlər...

**İnternet olmadan işləyən tətbiqlər kəsilən əlaqəni qurmaq baxımından həyat xilas edir.**

"Şər deməsən, xeyir gəlməz" ifadəsini əsas tutaraq fəlakət anında köməyinizə çatacaq həmin tətbiqləri sizə təqdim edirik. AKUT: Təhlükəsizlikdəyəm. "Təhlükəsizlikdəyəm" tətbiqi parametrlər bölməsindən qeyd etdiyiniz 5-ə qədər telefon nömrəsinə ekranda tətbiqin işarəsini sıxan kimi telefon GPS xidməti ilə olduğunuz yeri SMS vasitəsilə həmin insanlara göndərir.

Firechat. "Ted.az" bildirir ki, "Bluetooth" və "WiFi" ilə quraşdırılmış telefonlar arasında əlaqə yaratmağa imkan verir. Bridgefy. İnternet və şəbəkə girişi olmayan yerlərdə yalnız "Bluetooth" vasitəsilə 100 metr məsafədəki insanlarla ünsiyyət qurmağa imkan verir. MeshTalk. Oppo markası tərəfindən hazırlanan bu texnologiya "WiFi" və ya şəbəkə olmadan 3 km-lik ərazi daxilində foto, video və mətn göndərməyə imkan verir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.